www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 1 sentyabr 2016-cı il Cümə axşamı № 193 (6514) Qiyməti 60 qəpik

**Xəbər**

## Bakıda dollar ajiotajı - 20 gün sonra nə olacaq?

yazısı səh.10-da

**Gündəm**

### Avropa Parlamenti ilə rəsmi Bakı arasında yeni gərginlik



AP-də dinləmələr bu ilin əvvəllərindən başlayaraq istiləşən Azərbaycan-Qərb münasibətlərinə mənfi təsir edə bilər; iqtidar təmsilçisi "onlara qətiyyən əhəmiyyət vermək lazım deyil" deyir, ekspertlər isə...

yazısı səh.4-də

*"Sovetski"ni sökən məmur:*

### "Başçıya dedim ki, aksiyaya 5 min nəfər yığışıb, neynəyək..."

yazısı səh.15-də

### Prezidentlərin avqust görüşü niyə reallaşmadı - səbəblər

yazısı səh.9-da

### Samir Şərifov devalvasiya ittihamından "suçsuz" çıxdı

yazısı səh.10-da

### Referendumla bağlı seminar-müşavirə keçirilib

yazısı səh.3-də

### Tarixçi alim Fazil Mustafanı ittiham etdi

yazısı səh.13-də

### Vitse-prezidentliyə Artur Rasi-Zadənin namizədliyi önə çıxır

yazısı səh.3-də

### BMT-nin 25 il işğalda olan torpaqlarla bağlı "xüsusi sənəd"i varmı?

yazısı səh.7-də

### İsrail şirkəti Beynəlxalq Bankı məhkəməyə verdi

yazısı səh.10-da

### İslam Partiyasının lideri müddətsiz aclıq aksiyasına başlayıb

yazısı səh.11-də

### Milli Şura sentyabrın 11-nə mitinq təyin edib

yazısı səh.3-də

## İşğalçı ölkəyə iki mühüm qonşusundan sürpriz zərbə

# BAKI VƏ TİFLİS ERMƏNİSTANIN İZOLYASİYASINI SÜRƏTLƏNDİRİR - DÜŞMƏNİN YUXUSUNU QAÇIRACAQ QƏRAR

Gürcüstan baş nazirinin Azərbaycana qəfil səfərinin pərdəarxası; nazir Elmar Məmmədyarov Tiflisə prezident İlham Əliyevin xüsusi tapşırığı ilə gedibmiş; mesajda nələr olub? **Azərbaycanın dövlət başçısı:** "Regiondakı sabitlik energetika və nəqliyyat layihələrindən asılıdır"...




yazısı səh.7-də

## Eldar Mahmudovu 40 mühafizəçi qoruyurmuş - yaxın ətrafı haqda şok bilgilər

Sabiq nazirin qudası və gəlini, iki "Akula"sı harada gizlənib?; yaxın adamları xüsusi nəzarətə götürülüb

yazısı səh.6-da



*Etibar Əliyev:*

### "Əli İnsanov mənim necə ağsaqqalım ola bilər?!"

yazısı səh.4-də



Vahid Əhmədov

### Deputat baş nazir müavinlərinin ixtisarını istəyir

yazısı səh.8-də



### General Çovdarov günbəgün özünü öldürür - 12 kq arıqlayıb

yazısı səh.11-də

YENİ MÜSAVAT
N 193 (6514) 1 sentyabr 2016



## Rusiya həkimləri İslam Kərimovun yanındadır

**Rusiyanın Burdenko adına neyrocərrahiyə institutunun həkimləri prezident İslam Kərimovun müalicəsi üçün Özbəkistandadır. Virtualaz.org xəbər verir ki, bu məlumatı RBK agentliyi tibbi dairələrdəki mənbələrə istinadən yayıb. İnsititutun elmi rəhbəri Aleksandr Konovalov məlumatı təsdiqləyib. "Onlar çoxdan oradadır, artıq ilk məqamlardan bizim həkimlər ora gedib"-Konovalov bildirib.**

Konovalovun sözlərinə görə, bu məsələni institutun direktoru, neyrotravmatologiya şöbəsinin rəhbəri Aleksandr Potapov kurasiya edir. Potapovdan şərh almaq mümkün olmayıb.

Bundan əvvəl Rusiya baş nazirinin müavini Olqa Qolodets açıqlamışdı ki, Özbəkistan Kərimovun müalicəsi ilə bağlı kömək üçün rəsmən müraciət etməyib. "Əgər müraciət olunsa biz həmişə kömək etməyə hazırıq"-o deyib.

Təsdiqlənməmiş məlumatlara görə, Kərimov hazırda süni tənəffüs aparatına qoşulub, digər mənbələr isə onun öldüyünü iddia edirdi.

## Həmsədrlər Dağlıq Qarabağa dair məsləhətləşmələr keçirəcəklər

**Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasını üzərinə götürmüş ATƏT-in Minsk Qrupu həmsədrləri növbəti məsləhətləşmələr keçirəcəklər. APA-nın məlumatına görə, Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova məsləhətləşmələrin sentyabrın 8-də Moskvada keçiriləcəyini bildirib.**

O deyib ki, görüşdə Qarabağ nizamlanması ilə bağlı aktual məsələlər müzakirə olunacaq: "Mayın 16-da Vyanada və iyunun 20-də Sankt-Peterburqda keçirilən görüşlərdə əldə olunmuş razılaşmaların reallaşdırılmasının gedişatına xüsusi diqqət yetiriləcək".

M. Zaxarova əlavə edib ki, söhbət mütəmadi olaraq Vaşinqton, Paris və Moskvada keçirilən məsləhətləşmələrdən gedir. O qeyd edib ki, bu görüşün əsas məqsədi üç ölkənin Qarabağ nizamlanması ilə bağlı səylərinin koordinasiyasıdır.

## Sentyabrda hava necə olacaq?

**Sentyabr ayında havanın orta aylıq temperaturunun iqlim normasına yaxın, bəzi yerlərdə isə bir qədər yüksək olacağı gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyindən APA-ya verilən məlumata görə, aylıq yağıntının miqdarının iqlim normasına yaxın, bəzi ərazilərdə isə bir qədər çox olacağı ehtimal olunur.**

Bakıda və Abşeron yarımadasında orta aylıq temperaturun 22-24 dərəcə isti (gecələr 17-22, gündüzlər 24-29, bəzi günlərdə 32 dərəcəyədək yüksələcək) olacağı gözlənilir ki, bu da iqlim normasına yaxın və bir qədər yüksəkdir.

Aylıq yağıntının miqdarının iqlim normasına yaxın (norma 12-23 mm) bəzi yerlərdə isə bir qədər çox olacağı gözlənilir.

**Başsağlığı**

**Sabiq daxili işlər naziri İskəndər Həmidov kəlbəcərli Şükürovlar ailəsinə analarının vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin.**

**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul

# "Rövşən Lənkəranski"nin qatilləri öldürüləcək - "sxodka" qərar verdi

**Avqustun 18-də Türkiyənin İstanbul şəhərində qətlə yetirilən "Rövşən Lənkəranski"nin qatilləri və qətlin sifarişçilərinin öldürüləcəyi qərarlaşdırılıb. Bu barədə Rusiyanın "Rosbalt" agentliyi hüquq-mühafizə orqanlarındakı mənbəyə istinadən məlumat yayıb. "Sxodka" iştirakçıları "Lənkəranski"nin qisasını almağa söz veriblər.**



Eyni zamanda Rövşənin qətlindən sonra bir çox "qanuni oğru"ların İstanbuldan Antalyaya köçdükləri bildirilir. Belə ki, kurort zona onlara daha təhlükəsiz gəlir. Rövşənin klanına daxil olan, "Merab Suxumskiy" kimi tanınan Merab Canqveladzenin də İtaliya həbsxanasından çıxdıqdan sonra məhz ora yerləşdiyi bildirilir. Antalyada baş tutan toplantıya da məhz o rəhbərlik edib. Nəşrin yazdığına görə, Merab Canqveladzedən başqa, "sxodka"da "qanuni oğru"lar Merab Baxiya, Roin Uqlava, İrakli Kaliçava, Koba Axvlediani və Zurab Dqebuadze də iştirak edib. İştirakçılar Rövşənin qisasını alacaqlarını desələr də, heç kimin ünvanına konkret ittihamlar səsləndirilməyib.

Qeyd edək ki, "Rövşən Lənkəranski" və "Merab Suxumskiy" eyni klanın rəhbərləri hesab edilirlər. 2013-cü ilin yanvarında Rusiya paytaxtında "qanuni oğru"laırn xaç atası hesab edilən "Ded Xasan" ləqəbli avtoritet Aslan Usoyan qətlə yetirilləndən sonra bu ölüm işində "Rövşən Lənkəranski" və "Merab Suxumski"nin adları hallandırılırdı. Hətta o dövrdə İtaliya polisi qətlin araşdırılmasında rusiyalı həmkarlarına yardım edə biləcəyini açıqlamışdı. İtaliya jandarması A.Usoyana hücum planını müzakirə edən şəxslərin səs yazılarını əldə etdiklərini diqqətə çatdırmışdı. Rusiya hüquq mühafizə orqanlarından olan mənbə bildirmişdi ki, səs yazısı İtaliya polisi tərəfindən 2012-ci il sentyabrın 18-də qeydə alınıb. Həmin gün "qanuni oğru" Merab bu şəhərdə "sxodka" keçirib. İtaliya polisi toplantı zamanı Merabın digər "həmkarı" Tariel Oniani ilə telefon əlaqəsi saxladığını bildirib. Onlar telefonda Usoyanın taleyi ilə bağlı müzakirələr aparıblar. "Taro" səs yazısında qısa şəkildə "onu məhv edin və bütün problemlər yox olacaq" deyib. İtaliya polisinin o dövrdəki açıqlamasından belə aydın olur ki, məhz həmin "sxodka"da A.Usoyanın ölüm əmri verilib. 2013-cü ilin yanvarında polislər həmin 2 şəxsin daha bir səs yazısını ələ keçiriblər. Bu zaman onlar yüksək əhval-ruhiyyə ilə "Ded Xasan"ın ölümünü müzakirə ediblər. Mənbə Rusiya Daxili İşlər Nazirliyinin səs yazılarına o qədər də güvənmədiyini və onların axtarışa hər hansı yardım edə biləcəyinə inanmadığını deyib.

**❑ E.HÜSEYNOV**

## Təcridxanada 2 "mahmudovçu" general üzləşdirilib

**Ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin həbsdə olan iki generalı üzləşdirilib. Bu haqda gununsesi.info hüquq-mühafizə orqanlarından aldığı məlumata əsasən xəbər yayıb. Məlumatda bildirilir ki, üzləşmə MTN-in Antiterror Mərkəzinin sabiq rəisi general-mayor Elçin Quliyevlə nazirliyin Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi general-mayor Akif Çovdarov arasında aparılıb. Məlumatda qeyd olunur ki, "mahmudovçu" generallar istintaqa bir-birinin əleyhinə ifadə veriblər. Üzləşmə də həmin ifadələrin yoxlanılması məqsədi ilə keçirilib. Qeyd edək ki, hər iki general Eldar Mahmudovun yaxın ətrafına daxil olmaqla onun çətesinin əsas simalarından hesab edilir.**

**❑ E.HÜSEYNOV**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**



## AZAL yeni payız aksiyası çərçivəsində 20 faiz endirim elan edir

**"Azərbaycan Hava Yolları" (AZAL) Qurban bayramına həsr olunmuş yeni payız aksiyasının başlaması barədə elan edir. Bakıdan/Bakıya aşağıdakı istiqamətlər üzrə 2016-cı il sentyabrın 5-dən 30-na kimi hər iki istiqamətə aviabilet alarkən 20 faiz endirim tətbiq ediləcək: London, Milan, Berlin, Paris, Praqa və Nyu-York. Uçuş dövrü: 15 sentyabr - 10 dekabr, 2016-cı il. Bundan başqa, Bakı-Tel-Əviv-Bakı istiqaməti üzrə uçuş dövrü sentyabrın 15-dən 25-dək və oktyabrın 25-dən dekabrın 10-dək olan aviabiletlərə 20 faiz endirim tətbiq edilir.**

Aviabiletləri şirkətin www.azal.az ttp://www.azal.az/ saytında bronlaşdırmaq və ya AZAL-ın kassalarında, həmçinin aviaşirkətin rəsmi agentliklərində əldə etmək mümkündür. Balların avtomatik hesablanması üçün, aviabiletin alınması prosesində müvafiq xanada AZAL Miles iştirakçısının unikal nömrəsini daxil etmək kifayətdir.

AZAL Miles bonus proqramı haqqında ətraflı məlumat aviaşirkətin rəsmi internet saytında verilmişdir: https://www.azal.az/az/azal-miles/miles-programme ttps://www.azal.az/az/azal-miles/miles-programme. Proqram iştirakçısı olmayan şəxslər aşağıdakı link vasitəsilə qeydiyyatdan keçə bilər: http://ffj2.loyaltyplus.aero/j2loyalty/register.jsf?lang=az ttp://ffj2.loyaltyplus.aero/j2loyalty/register.jsf?lang=az

Aviabiletləri əldə etmək və daha ətraflı məlumat almaq üçün aşağıdakı telefon nömrələri ilə əlaqə saxlaya bilərsiniz:

(+99412) 598-88-80; *8880.

E-mail: callcenter@azal.az ailto:callcenter@azal.az

AZAL Miles bonus proqramı ilə bağlı sualları ya azalmiles@azal.az ailto:azalmiles@azal.az email ünvanına və ya www.azal.az ttp://www.azal.az/ saytındakı əlaqə forması vasitəsilə göndərmək olar.

## "FETÖ-nün Azərbaycanda fəaliyyətinin qarşısının alınması üçün lazım olan addımlar atılacaq"

**"Azərbaycanla Türkiyənin əlaqələrində əsas hədəf terrora qarşı mübarizədir". "Report" xəbər verir ki, bunu Türkiyənin daxili işlər naziri Efkan Ala azərbaycanlı həmkarı Ramil Usubovla görüşündə vurğulayıb. "Hər cür terror qruplaşmasına qarşı mübarizədə təsiredici birliyimiz var. Bu, Fətullahçı terror təşkilatının (FETÖ) ölkələrimizdəki fəaliyyətinə son qoymaqda da özünü göstərir", - deyə, Efkan Ala bildirib.**

Ramil Usubov isə deyib ki, terrora qarşı mübarizədə mövcud problemlərin aradan qaldırılması üçün Azərbaycan tərəfi üzərinə düşənlərin hamısını yerinə yetirəcək.

O, iyulun 15-də Türkiyədə dövlət çevirilişinə cəhddən sonra görüləcək işləri müzakirə etmək üçün Türkiyəyə səfər etdiyini vurğulayıb: "FETÖ-nün Azərbaycanda fəaliyyətinin qarşısının alınması üçün lazım olan addımlar atılacaq. Türkiyədə dövlət çevirilişinə cəhd eyni zamanda Azərbaycana qarşı bir cinayətdir".

## ABŞ-a getməli olan vəkillərin siyahısı niyə yenilənib?

**Noyabr ayında "Open World" proqramı xətti ilə Amerikaya getməli olan azərbaycanlı vəkillərin adları siyahıdan çıxarılıb. Onlar başqaları ilə əvəz olunublar. Bu barədə öz facebook səhifəsində vəkil Xalid Bağırov status paylaşıb.**

Vəkil statusunda ABŞ-a getməli olan azərbaycanlı vəkillərin başqaları ilə əvəz olunmasına səbəb kimi bunları göstərib: "Vəkillərin orada müdafiə etdikləri şəxslərin işlərindən danışacağını bilən səfirliyin əməkdaşı, MSK sədrinin qohumu həmin şəxslərin adlarını siyahıdan çıxarıb. Əvəzində başqa şəxslər seçilib".

Məsələ ilə bağlı ABŞ-ın Azərbaycandakı səfirliyinin mövqeyini öyrənməyə çalışsaq da, mümkün olmadı.

**X.Bağırov "Yeni Müsavat"a açıqlamasında hadisə ilə bağlı yeni detallar açıqladı:** "Vəkillərin sənədləşməsi aylar öncədən başlamışdı. Amma bundan əvvəl həmin layihəyə yeni rəhbər gəlib. Həmin rəhbər də layihəyə yeni vəkillər seçməyə başlayıb. Əvvəl seçilən vəkilləri aparmamaq üçün. Məsələ təxminən bu şəkildədir. Bu layihədə iştirak həmişə olmur. Bir şəxs bir dəfə gedir. Proqramın mahiyyəti belədir. Bu dəfə vəkillərlə bağlı seçimlər olub. Təəssüf ki, belə bir hal yaşanıb. Gedəcək şəxslər getmək eşqində olanlar deyil. Amma necə olur ki, yeni rəhbər gələn kimi köhnə seçim geriyə atılır, əvəzində yeniləri seçilir".

Avropaya iş göndərən tanınmış vəkillərin adlarının həmin siyahıda olub-olmamasını dəqiqləşdirmək üçün araşdırma apardıq. Hüquqşünas Aslan İsmayılov, Əsabəli Mustafayev, Elçin Sadıqov kimi tanınmış vəkillər məsələdən xəbərsiz olduqlarını söylədilər. Fariz Namazlı isə bu proqram çərçivəsində 5 il öncə Amerikaya getdiyini bildirdi.

**❑ Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 193 (6514) 1 sentyabr 2016



# “KİV referendumqabağı təşviqatda aktiv olmalıdır” - Əli Həsənov

## Prezident Administrasiyası, MSK və Mətbuat Şurasının birgə təşkilatçılığı ilə seminar-müşavirə keçirilib

**Avqustun 31-də Prezident Administrasiyası, Mərkəzi Seçki Komissiyası (MSK) və Mətbuat Şurasının birgə təşkilatçılığı ilə “Referendumqabağı təşviqat prosesində kütləvi informasiya vasitələrinin rolu və vəzifələri” mövzusunda seminar-müşavirə keçirilib.**

APA-nın məlumatına görə, MSK sədri Məzahir Pənahov deyib ki, Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi məqsədilə 2016-cı il sentyabrın 26-na təyin edilmiş ümumxalq səsverməsi (referendum) ilə bağlı MSK-nın Təqvim Planı təsdiqlənib, 3 təşviqat qrupu qeydiyyatdan keçib. M. Pənahov seçki, referendum prosesinin mahiyyətinin ictimaiyyətə çatdırılmasında əsas rolun KİV-in üzərinə düşdüyünü və MSK-nın əsas tərəfdaşının da KİV olduğunu bildirib.

**Azərbaycan prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov deyib ki, indiyə qədər 5 referendum keçirilib:** “1995-ci ildə Konstitusiya qəbul olunub, 2002 və 2009-cu ildə keçirilən referendumda əlavə və dəyişikliklər edilib. Konstitusiya dünyanın heç bir ölkəsində doqma sayılmır və zamanla müvafiq dəyişikliklər edilib. ABŞ və Fransa konstitusiyalarına da çoxlu dəyişiklik olunub. Qonşu Türkiyədə də konstitusiyaya dəyişikliklər gündəmdədir. Türkiyədə konstitusiyaya nəzərdə tutulan dəyişikliklər prezident üsul-idarəsinin gücləndirilməsi ilə bağlıdır”.

**Ə. Həsənov bildirib ki, dövrün tələblərinə uyğun olaraq konstitusiyaya dəyişiklik həm zərurət, həm də günün tələbidir:** “Hələ ilin əvvəlində prezident İlham Əliyev 2016-cı ili islahatlar ili elan edib, yeni qurumlar təsis edib. Konstitusiyaya dəyişiklikləri ölkədə aparılan siyasi və iqtisadi islahatların davamı hesab etmək olar. Yaradılması nəzərdə tutulan vitse-prezidentlik institutu qəbul edilən qərarların icrasını təmin etmək üçün optimal institut kimi nəzərdə tutulub. Dəyişiklik və əlavələrə əsasən, sahibkarlıq sahəsində dövlətin funksiya və vəzifələrinin sərhədləri dəqiq müəyyən edilib. Seçkili orqanlarda yaş senzinin aradan qaldırılması da mühüm addımdır”.

**Azərbaycan prezidentinin köməkçisi referendumun azad, şəffaf keçirilməsində KİV-in də üzərinə mühüm vəzifə düşdüyünü qeyd edib:** “KİV referendumqabağı təşviqatda aktiv olmalıdır, bu, Azərbaycan dövlətinin marağındadır. Təşviqat prosesində KİV-in rolu və vəzifələri Seçki Məcəlləsində, ”KİV haqqında" Qanunda əksini tapıb. Jurnalistlər seçki prosesinin bütün mərhələlərini izləməkdə azaddırlar, onlar MSK və dairələrdə akkreditə olunmadan istənilən seçki məntəqəsində prosesi müşahidə edə bilərlər. Əsas odur ki, jurnalistlər referendumla bağlı müxtəlif mövqeləri, o cümlədən prosesə tənqidi münasibət bildirən siyasi partiyaların, vətəndaşların mövqelərini işıqlandırmalıdır".





**Heydər Əliyevin mətbuat üzərində senzuranı aradan qaldırdığını, Mətbuat Nazirliyini ləğv etdiyini qeyd edən Ə. Həsənov Azərbaycanda KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun yaradıldığını, ötən dövr ərzində mətbuata 30 milyon manatdan çox yardım göstərildiyini bildirib:** “Əlavə yardımları da nəzərə alsaq, KİV-ə yardımın ümumi məbləği 40 milyon manata çatır”.

Milli Televiziya və Radio Şurasının sədri Nuşirəvan Məhərrəmli bundan öncəki seçkilərdə təşviqat aparılması prosesində hər hansı ciddi problem yaranmadığını, referendumqabağı təşviqatda da hər hansı problemin ortaya çıxmasını gözləmədiklərini söyləyib. MTRŞ sədri telekanallarda ödənişli və ödənişsiz əsaslarla referendumqabağı təşviqat prosesi zamanı riayət edilməli olan qaydalardan da söz açıb.

**Mətbuat Şurasının sədr müavini Umud Mirzəyev konstitusiyaya təklif edilən əlavə və dəyişikliklərin mahiyyətinin geniş ictimaiyyətə çatdırılmasında media və vətəndaş cəmiyyəti institutlarının üzərinə mühüm vəzifə düşdüyünü qeyd edib:** “Mətbuat Şurası KİV-in səsvermənin qərəzsiz, ədalətli işıqlandırılması, həmin prosesi işıqlandıran media təmsilçilərinin üzləşə biləcəkləri maneələrin aradan qaldırılması istiqamətində fəaliyyət göstərir. Mətbuat Şurasında səsvermə günü ”Qaynar xətt" təşkil edilir. Jurnalistlərin səsvermə günü üzləşəcəyi problemlərlə Mətbuat Şurasına müraciət etmək imkanı yaradılır, Mətbuat Şurası MSK ilə müntəzəm əlaqə saxlayır. Mətbuat Şurası seçki və referendumla bağlı maarifləndirici tədbirlərin təşkilini də diqqət mərkəzində saxlayır. Bu gün Prezident Administrasiyası və MSK ilə birgə təşkil edilən tədbir də bu qəbildəndir. İnanıram ki, təşviqat qruplarına KİV-də xüsusi yer ayrılacaq, ictimaiyyət referendumla bağlı geniş məlumatlandırılacaq. KİV-in ictimaiyyətin referendum barədə obyektiv məlumatlandırılması, seçkilərin ədalətli və şəffaf keçirilməsində mühüm rol oynayacağına əminik".

MSK-nın sədr müavini Natiq Məmmədov “Referendumqabağı təşviqata dair ümumi tələblər və referendumqabağı təşviqat subyektləri, ödənişli və ödənişsiz əsaslarla aparılan referendumqabağı təşviqata şərait yaradılması prosesində KİV-in üzərinə düşən vəzifələr” mövzusunda çıxış edib.

# Referendumu kimlər müşahidə edəcək?

## MSK sədri rəqəmlər açıqladı

**26 sentyabr referendumu ilə bağlı hazırlıqlar davam edir. Dünən Mərkəzi Seçki Komissiyasının iclası keçirilib. MSK Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən verilən xəbərə görə, MSK sədri Məzahir Pənahov iclasda bildirib ki, avqustun 31-dək referendumla əlaqədar Mərkəzi Seçki Komissiyasında 161 müşahidəçi qeydiyyatdan keçib. Bunlardan 82 nəfəri “Yeni Azərbaycan” təşviqat qrupunun, 29 nəfəri “Vətəndaş Cəmiyyəti” təşviqat qrupunun müşahidəçisidir. 42 nəfər öz təşəbbüsü ilə müşahidəçi kimi MSK-dan qeydiyyatdan keçib. 6 nəfər isə MDB Parlament Assambleyasının müşahidəçiləridir. Dairələrdə isə 7503 müşahidəçi qeydiyyatdan keçib.**

Onlardan 903 nəfər siyasi partiyaların, 2102 nəfər “Yeni Azərbaycan” təşviqat qrupunun, 207 nəfər “Vətəndaş Cəmiyyəti” təşviqat qrupunun, 1034 nəfər “Bələdiyyə” təşviqat qrupunun müşahidəçisidir.

M. Pənahov sentyabrın 1-dən etibarən dairə seçki komissiyaları üçün treninqlərin başlayacağını da açıqlayıb. Tədbirlərdə dairə seçki komissiyalarının sədrləri və müvafiq şəxslər iştirak edəcəklər.

❑ **E.SEYİDAĞA**



# Vitse-prezidentliyə Artur Rasi-Zadənin namizədliyi önə çıxır

## Ölkənin ikinci rəsmi şəxsi yenə o ola bilər

**Sentyabrın 26-da Azərbaycanda keçiriləcək referendumdan sonra Azərbaycanda hakimiyyət idarəçiliyi sistemində vitse-prezidentlik institutu tətbiq ediləcək. Ölkədə rəsmi ikinci şəxs bundan sonra baş nazir yox, birinci vitse-prezident olacaq. Vitse-prezidentlərin isə sayının iki olacağı deyilir. Qeyd edək ki, referendum aktında birinci vitse-prezidenti və vitse-prezidentləri ölkə prezidentinin təyin edəcəyi əksini tapır.**

Referendum təyin ediləndən sonra vitse-prezident vəzifələrinə, əsasən də birinci vitse-prezident postuna kimin təyin ediləcəyi barədə mediada müxtəlif informasiyalar, versiya və ehtimallar irəli sürülməkdədir. İndiyə qədər daha çox adı hallanan şəxslər Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (ASAN Xidmət) sədri İnam Kərimovun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun adı birinci vitse-prezident vəzifəsinə namizəd olaraq mediada çəkilib.

Son günlər isə birinci vitse-prezident vəzifəsinə hazırkı baş nazir Artur Rasi-Zadənin əsas namizəd olaraq ortaya çıxdığı deyilir. Xəbərlərdə qeyd edilir ki, konstitusiyaya dəyişikliklərlə bağlı sentyabrın 26-da keçiriləcək referendumdan sonra baş nazir Artur Rasi-Zadə birinci vitse-prezident postuna təyinat ala biləcək ən real namizəddir. Artıq hakimiyyət dəhlizlərində də bu barədə danışılmağa başlanıb.

Məlumatlı mənbənin dediyinə görə, Artur Rasi-Zadənin 26 sentyabrdan sonra da ölkənin rəsmi ikinci şəxsi qalmasını təmin edən bir sıra keyfiyyətləri var ki, hakimiyyətə ikinci postda məhz o keyfiyyətdə olan şəxsin əyləşməsi lazımdır. Ona görə də böyük ehtimalla ortaya yeni variant çıxmayacağı təqdirdə Artur Rasi-Zadə baş nazir vəzifəsindən azad ediləcək və birinci vitse-prezident postuna gətiriləcək. Ən pis halda qocaman baş nazir vitse-prezident olacaq.

Ölkə başçısının Artur Rasi-Zadəyə üstünlük verməsinə gəlincə, mənbə bildirib ki, baş nazir hakimiyyətdəki digər fiqurlardan daha etibarlıdır, sınaqdan dəfələrlə çıxmış iddiasız, adı korrupsiya qalmaqallarında hallanmayan şəxsdir. Prezident İlham Əliyev ölkənin ikinci şəxsinin iddialı fiqur olmasını istəmir. Hazırkı baş nazir isə siyasi iddiası olmayan fiqur imicini yarada bilib. Artur Rasi-Zadənin 20 il baş nazir vəzifəsində qala bilməsinin əsas səbəbi də budur. 2002-ci ildə konstitusiya dəyişikliyindən sonra ölkənin rəsmi ikinci şəxsi olduğu 14 ildə Rasi-Zadə sübut edib ki, onun ikinci olması hakimiyyətə heç bir siyasi təhlükə törətmir. Görünür, elə bu amil onun adının şanslı namizəd olaraq ortaya çıxmasında əsas rol oynayır.

❑ **Etibar SEYİDAĞA**

# Milli Şura sentyabrın 11-nə mitinq təyin edib

**Milli Şura sentyabrın 11-də mitinq keçirəcək. APA-nın məlumatına görə, bu barədə AXCP sədri Əli Kərimli özünün facebook sosial şəbəkəsindəki səhifəsində yazıb. O bildirib ki, mitinqin Bakı Şəhər İcra Hakimiyyəti ilə razılaşdırılmaq şərti ilə “Məhsul” stadionunda keçirilməsi planlaşdırılır.**

YENİ MÜSAVAT
N 193 (6514) 1 sentyabr 2016

**Avqustun 31-də Avropa Parlamentində Azərbaycanda son həbslərlə bağlı dinləmələr keçirilməsi ölkəmizdə ciddi narahatlıqla qarşılanıb. Ekspertlər hesab edirlər ki, bu dinləmələr bu ilin əvvəllərindən başlayaraq istiləşən Azərbaycan-Qərb münasibətlərini yenidən gərginləşdirə bilər.**

# Avropa Parlamenti ilə rəsmi Bakı arasında yeni gərginlik

## Avropa Parlamentində dinləmələr bu ilin əvvəllərindən başlayaraq istiləşən Azərbaycan-Qərb münasibətlərinə mənfi təsir edə bilər; iqtidar təmsilçisi "onlara qətiyyən əhəmiyyət vermək lazım deyil" deyir, ekspertlər isə...

Dinləmədə iştirak edən "Sport for Human Rights Coalition" (İnsan Hüquqları Naminə İdman) koordinatoru Rebeka Vinsentin öz twitter mikroblogunda paylaşdığı yazıda əslində bunun elementləri görünür. **Vinsent** hesab edir ki, Avropa İttifaqı Azərbaycan hökumətini daha sərt şəkildə insan hüquqları sahəsində öhdəliklərinə riayət etməyə çağırmalıdır: ""İnsan Hüquqları Naminə İdman" kampaniyasının fəalları Azərbaycanda bu ilin mart-may ayında bir çox siyasi, ictimai fəallar azadlığa çıxsa da, vəziyyətin, demək olar ki, dəyişmədiyini hesab edirlər. Son vaxtlar yeni həbslər həyata keçirilib. Bu, Azərbaycan prezidentinin konstitusiyaya dövlət başçısının səlahiyyətlərini gücləndirən düzəlişlər üzrə referendum təşəbbüsü irəli sürməsindən sonra baş verib".

Qeyd edək ki, son 8 ayda Qərb-Azərbaycan münasibətləri müsbət yöndə ciddi şəkildə inkişaf etmişdi. Xüsusilə ölkə iqtidarı mart-may ayları aralığında Qərbin diqqətində olan əksər siyasi məhbusları azad etməklə, azadlığa çıxan Leyla və Arif Yunusların müalicələri üçün ölkədən çıxışlarına icazə verməklə ciddi dəstək qazanmışdı. Ard-arda hakimiyyətin ünvanına Avropadan dəstək mesajları gəlirdi. Amma bu çox qısa çəkdi. Referendum öncəsi bir sıra siyasi həbslərin həyata keçirilməsi isti münasibətlərin üstünə "soyuq su" səpdi. Ekspertlər bildirirlər ki, maliyyə sıxıntılarını aradan qaldırmaq üçün Qərbdən borc almağa ehtiyac duyan bir ölkə üçün indiki şəraitdə münasibətlərin soyuqlaşması gələcək üçün müsbət heç nə vəd etmir. Bundan əlavə, gərginləşən münasibətlər Azərbaycan hakimiyyətinin xarici investisiyaların ölkəyə cəlb olunması üçün apardığı siyasətə də mənfi təsir edə bilər.

**"Azərbaycan" qəzetinin baş redaktoru, YAP-çı deputat Bəxtiyar Sadıqov bildirdi ki, Azərbaycan balanslı siyasət yürüdür:** "Azərbaycan yaxın qonşuları və Qərblə xoş münasibətlər qurmağa çalışır. Əməkdaşlıq üçün addımlarını atır. Bu əməkdaşlıq həm bir-birinin daxili işinə qarışmamaq, həm bir-birinə qarşılıqlı şəkildə hörmət etmək, həm də bir-birinin maraqlarını təmin etməkdir. Cənab İlham Əliyevin bu siyasəti ölkəmizə böyük uğurlar qazandırıb, Azərbaycanın dünyada siyasi nüfuzu güclənib. Azərbaycan beynəlxalq qurumlarla da əməkdaşlıq etməyə çalışır. Daim beynəlxalq qurum və təşkilatlardan bizim bir tələbimiz olub. Ədalətli, obyektiv olsunlar, hadisələrə beynəlxalq hüquq normaları ilə yanaşsınlar, qiymət versinlər. Bizi ən çox ağrıdan da ikili standartlardır. Çox şadam ki, cənab prezident o dövlətlər, beynəlxalq təşkilatlar var ki, Azərbaycana qarşı ədalətsiz hərəkət edirlər, dərhal bunu qeyd edir. Tənqidi fikirlərini deyir. Bizim də qəzetimiz vasitəsilə həmin haqsızlıqlara söz demək imkanımız yaranır. "Human Rights Watch", "Amnesty İnternational" kimi təşkilatlar öz qərəzlərini daim büruzə verirlər. Keçən dəfə Avropa İttifaqı da qərəzli mövqe sərgilədi. Azərbaycanda icazəsiz aksiya keçirilir və hökumət bunun qarşısını alır. Bu halda dərhal beynəlxalq



təşkilatlar hərəkətə keçirlər ki, insanların "Sərbəst toplaşmaq azadlıqları" pozulur. Çalışırlar ki, bunu Avropa İttifaqı, yaxud Şurasında müzakirəyə çıxarsınlar. Görün necə aydır ki, Ermənistanda nələr baş verir: polis öldürülür, jurnalistlər tutulur, insanlara zorakılıq edilir. Avropa İttifaqı nə üçün bunu müzakirə etmir? "Amnesty İnternational" və digər belə təşkilatlar qeyd etsəydilər ki, Dilqəm Əsgərov və Şahbaz Quliyev öz ana torpaqlarında yaxınlarının qəbirlərini ziyarət edən zaman həbs olunublar, onlara qarşı təhqiramiz hərəkətlər olub, onlara qeyri-qanuni uzunmüddətli həbs cəzası çəkdirirlər, buna sadəcə təəccüblənərdim. Ermənilər qanunu pozanda, qarşıdurma yarananda, parlament binası güllələbaran ediləndə bunların səsi çıxmır. Elə ki, Azərbaycan tərəfdə nəsə oldu, siyasi məhbus və digər problemlərin olduğunu deyirlər. Halbuki siyasi dustağın kriteriyalarının nə olduğunu bilmirlər. Siyasi məhbusun kim olduğunu müəyyənləşdiriblər? Artıq bunlara təəccüblənmirəm. Azərbaycan elə bir karvandır ki, müstəqil yolu ilə əzəmətlə irəliləyib. O yerdə ki, ikili standartlar, ermənilər tərəfindən maliyyələşən təşkilatlar, Azərbaycana qarşı qərəzli münasibət var, onlara qətiyyən əhəmiyyət vermək lazım deyil. Azərbaycan demokratiyası, iqtisadiyyatı inkişaf etdirilir, müstəqilliyimiz möhkəmlənir. Tezliklə ərazi bütövlüyümüz də bərpa olunacaq".

**"Turan" informasiya agentliyinin rəhbəri Mehman Əliyev ölkə prezidenti səviyyəsində Qərbin tələbi olan islahatların keçirilməsinə razılıq verildiyini söylədi:** "Bununla bağlı artıq "Yol xəritəsi" hazırlanır. Bu xəritə hansı səviyyədədir, bu başqa məsələdir. Bu "Yol xəritəsi" hazırlanarkən məlum olub ki, hakimiyyət daxilində bir qrup bunun əleyhinə çıxır. Başqa bir qrup isə islahatları dəstəkləyir. İndi sanki proses müəyyən dərəcədə ləngiyir. Halbuki ölkə başçısı islahatların keçiriləcəyini deyir. Beynəlxalq institutlar Azərbaycana heç bir vəsait ayırmır. Hökumətdə islahatlara vahid münasibət yoxdur. Bu da Qərbi narahat edir. Avropa Parlamentinin Azərbaycanla bağlı müzakirələri Azərbaycan hakimiyyətinə bir mesaj olacaq ki, islahatları keçirin, əks halda, daha sərt addımlar atacağıq. Qəbul edilən qərarlar sözdə yox, əməldə icra olunacaq. İslahatlar keçirilməsə, münasibətlər gərginləşəcək. Çox kritik vəziyyətdəyik. Qərbin dəstəyi olmasa, vəziyyət inqilabi duruma gəlib çıxacaq. Dinləmələr islahatlara təkan vermək məqsədi daşıyır".

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı iyun ayından etibarən vəziyyətin gərginləşdiyini düşünür:** "Baş verənlər təbii ki, Qərbi narahat etməyə bilməz. Bunun üçün də belə müzakirələr olur. Beynəlxalq təşkilatlar baş verən prosesləri, məhkəmələri ciddi şəkildə izləyirlər. Ona görə ciddi çağırışlar səslənmir. Ola bilər ki, belə müzakirələrdə bəzi deputatlar tərəfindən Azərbaycan əleyhinə fikirlər səslənsin. Çünki ölkəmizdən Avropaya çoxlu hesabatlar gedir. İlin axırına kimi gözləmə mövqeyinin olacağını düşünürəm. İlin sonuna qədər Azərbaycan hakimiyyəti ciddi addımlar atmasa, yəqin ki, Avropadan mesajlar gələcək. Amma heç bir sanksiya tətbiq olunmayacaq".

**❑ Cavanşir ABBASLI**

# "Əli İnsanov mənim necə ağsaqqalım ola bilər?!"

## Etibar Əliyev: "Ailənin, nəslin ağsaqqalı olmaq mümkündür, regionun ağsaqqalı olmaq, absurddur"

**"Misir Mərdanov məni işdən çıxardanda Əli İnsanov buna hüquqi don geyindirmək üçün poliklinikadan mənə verilən qanuni bülleteni ləğv etdirdi. Bu, bəlkə də tibb sahəsində yol verilən ən əcaib hallardan biri idi"**

**Hazırda həbsdə olan keçmiş səhiyyə naziri Əli İnsanova yenidən cinayət işinin açılması mətbuatda bəzi müzakirələrə yol açdı. Bunlardan biri də Ə.İnsanovun həmyerlilərinin onun barəsində susması oldu. "Yeni Müsavat"ın əməkdaşı qərbi azərbaycanlı kökənli bir neçə tanınmışa zəng edərək sabiq naziri müdafiə edib-etməmələrini soruşmuşdu. Onlardan bəziləri bu mövzuda danışmaqdan imtina etmişdi. Yalnız "Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallı "Yeni Müsavat"a danışmış, məsələyə öz mövqeyini bildirmişdi.**





Bundan sonra Qərbi Azərbaycandan olan **təhsil eksperti, fəlsəfə doktoru Etibar Əliyev** "Yeni Müsavat" qəzetinə müraciət edərək mövzu ilə bağlı öz mövqeyini bildirib:

"Keçmiş səhiyyə naziri Əli İnsanovun yerliləri olan bir neçə tanınmış şəxsə sabiq nazirlə bağlı danışmaları üçün müraciət edilməsi haqqında "Yeni Müsavat" qəzetində yazı oxudum. Məqalədə bildirilirdi ki, onlar bu mövzuda danışmaqdan imtina ediblər. Deyiblər ki, mətbuatda adlarının sabiq nazirlə yanaşı çəkilməsini istəmirlər. Əslində bu, reallıqdır. Ancaq həmin bölgəni təmsil edən şəxs kimi bu barədə fikirlərimi qısa şəkildə yazıb sizə göndərirəm.

Əli İnsanovu yeri gəldi-gəlmədi qərbi azərbaycanlıların ağsaqqalı hesab edirlər. Bilirsiniz, ağsaqqal məsələsi çox mürəkkəb məsələdir. Ailənin, nəslin ağsaqqalı olmaq mümkündür. Ancaq regionun ağsaqqalı olmaq, absurddur. Regionun ağsaqqalı olmaq üçün gərək regionu təmsil edən bütün insanların qayğısına qala biləsən. Əli İnsanov 12 il səhiyyə naziri vəzifəsində çalışıb. Belə çıxır ki, o, öz sahəsində regionun ağıllı və qabiliyyətli nümayəndələrini işə götürüb, yaxud başqa yerlərdə onların işlə təmin olunmasına çalışıb? Biz həmin illərin canlı şahidləriyik və onun regionun hansı keyfiyyətlərə malik olan insanlarını dəstəklədiyini çox gözəl bilirik. Təvazökarlıqdan uzaq, yeri gəlmişkən, özümlə bağlı bir məsələni deyim. Misir Mərdanov da bizim regionun adamıdır. O, qanunsuz olaraq məni işdən çıxarmışdı. Belə çıxır ki, regionun ağsaqqalı onu tənbeh etməli idi. Özü də mən pis təhsil işçisi deyildim. Amma Əli İnsanov məni müdafiə edib, Misir Mərdanovu tənbehlədimi? Yox. Əvəzində nə etdi? Dəhşətə gəlmişdim. Əli İnsanov mənim işdən çıxarılmağıma hüquqi don geyindirmək üçün poliklinikadan mənə verilən qanuni bülleteni ləğv etdirdi. Bu, bəlkə də tibb sahəsində yol verilən ən əcaib hallardan biri idi. Belə olan halda konkret olaraq o, necə mənim ağsaqqalım ola bilər?! Yaxud mən onu necə müdafiə edim? Bunu qoyaq bir tərəfə, müdafiənin mənası nədir? Əslində dövlətdə böyük vəzifələr tutan adamlar siyasətlə məşğul olmamalıdırlar. Hansısa Amerika sosioloqunun maraqlı fikri var: "Kimin pulu milyonu ötdüsə, o özü də bimədən siyasətə girişir". Buna görə də qərbi azərbaycanlıları qınamayın. Kiminsə siyasətin burulğanına düşməsi mənim və başqalarının problemi deyil".

**"Sual olunur, bizdən başqa digər regionların "ağsaqqalı"nın olmasını kimsə eşidibmi? Əlbəttə ki, yox. Onda bizim regiona nə düşüb?"**

**E.Əliyev bildirir ki, indiyədək qərbi azərbaycanlıların adından kifayət qədər imitasiyalar edilib:** "Ayaz Mütəllibov hakimiyyətini möhkəmləndirmək üçün bu kartdan istifadə edərək bir çox vəzifə düşkünlərini ətrafında toplamağı bacarmışdı. Yəni bizi özünün elektoratına çevirmək üçün təbliğatını qura bilmişdi. Sonra nə oldu - bunu da hamımız bilirik. Hansısa regionun insanlarının adından sui-istifadənin bumeranq effekti yaman pis olur.

Dövlətdə sabitlik yarandıqdan sonra seçkilərdə regional faktor sıradan çıxdı. Bu, təbii idi. Yürüdülən sərištəli siyasət bu kabusu aradan qaldırdı. Əslində bu, rasional düşünən bütün insanların istəyidir. İndi heç kim deyə bilməz ki, mən hansısa regionun ağsaqqalıyam. Bu paradiqma artıq işləmir. Yaxud hansısa region dayanıqlı elektorat kimi seçkidə məsələləri həll etmir. Ümumxalq səsverməsi var, vəssalam. Sual olunur, bizdən başqa digər regionların "ağsaqqalı"nın olmasını kimsə eşidibmi? Əlbəttə ki, yox. Onda bizim regiona nə düşüb?"

YENİ MÜSAVAT
N 193 (6514) 1 avqust 2016

# Eldar Mahmudovu 40 mühafizəçi qoruyurmuş - yaxın ətrafı haqda yeni bilgilər

## Sabiq nazirin qudası və gəlini, 2 “Akula”sı ölkədən qaçıb; yaxın adamları xüsusi nəzarətə götürülüb

**Ötən ilin oktyabrında vəzifəsindən çıxarılan milli təhlükəsizlik naziri Eldar Mahmudovun qudası Cahangir Hacıyevin işi üzrə məhkəmə prosesi davam edir. Ötən proseslərdən birində məlum olub ki, Cahangir Hacıyev Beynəlxalq Banka rəhbərlik etdiyi dönəmdə qızı, Eldar Mahmudovun gəlini olan Aida Mahmudovanın adına bankın “Mərkəz” filialından bir neçə milyonluq kredit götürülüb.**

C.Hacıyevin həbsindən sonra isə araşdırılan məsələlər sırasında A.Mahmudovanın bankdan kredit götürməsi də olub. Bununla bağlı A.Mahmudova istintaqa çağırılıb. Amma o, xaricdə olduğundan istintaqın çağırışına getməyib. Sonradan isə ümumiyyətlə Azərbaycana gəlməkdən imtina edib. A.Mahmudovanın harada olması haqda məlumat verilmir. Ehtimal olunur ki, o, anası Zamirə Hacıyevanın olduğu Londona gedib. Qeyd edək ki, Z.Hacıyeva barəsində həyat yoldaşının həbsindən sonra Cinayət Məcəlləsinin 179-cu maddəsi (mənimsəmə) ilə cinayət işi başlanıb. Z.Hacıyeva 2009-cu ildən 2015-ci ilə qədər Beynəlxalq Bankdan 18 milyon 429 min manat mənimsəməkdə ittiham olunur. Həbsdəki bankirin həyat yoldaşı ittihamları rədd edir, əsassız olduğunu bildirir.

Eldar Mahmudovla oğlu Anar Mahmudovun, Eldar Mahmudov vəzifədən çıxarılana qədər polis rəisi olmuş əmisi oğlu İlqar Mahmudovun və digər yaxın qohumlarının harada olmaları isə gizlədilir.

Bilinən odur ki, sabiq nazirin yaxın çevrəsi də istintaqın diqqət mərkəzinə düşüb. Onların ölkədən çıxışlarına “stop” qoyulub.

**Mahmudovun 2 “Akula”sı ölkədən qaçıb**

Qeyd edək ki, E.Mahmudov vəzifəsindən çıxarılandan sonra onun yeri haqda ziddiyyətli məlumatlar yayılıb. İlkin məlumatlarda sabiq nazirin Badamdardakı imarətində olduğu bildirilirdi. Sonrakı məlumatlarda isə sabiq nazirin Bilgəhdəki dəbdəbəli bağ evinə aparıldığı, orada nəzarət altında saxlanıldığı iddia olunurdu. E.Mahmudov “vurulandan” sonra ölkədən qaçmağa müvəffəq olanlardan biri də onun yaxın ətrafına daxil olan “Akula Akif” ləqəbli Akif Mustafayevdir. Bu şəxs Eldar Mahmudov vəzifədən çıxarılandan bir gün sonra Azərbaycandan qaçıb. Hazırda Londonda gizləndiyi haqda məlumatlar var. A.Mustafayev E.Mahmudovun badə yoldaşı olmaqla bərabər imkanlı sahibkarlar haqda ona məlumatlar ötürməklə məşğul olub. Sonradan həmin şəxslər müxtəlif bəhanələrlə həbs olunub, təhdid edilib və milyonları əllərindən alınıb.

Redaksiyamıza daxil olan məlumatda deyilirdi ki, hazırda Dubayda gizləndiyi ehtimal edilən Polad Qabulov da “Akula Akif”in funksiyasını yerinə yetirib. Onun barəsində hüquq-mühafizə orqanlarına müraciət edən isə Nizami adlı iş adamı olub. “Akula Polad”ın verdiyi məlumatlar əsasında Nizami adlı iş adamının başına torba keçirib MTN-ə aparan “mahmudovçu”lar onun bank hesabından 2 milyon manat alıb özünü əlavə olaraq 2 milyon manat ödəməsi şərti ilə azad ediblər.



**Eldar Mahmudovun baş istintaqçısını kim qoruyur?**

Ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin Baş İstintaq İdarəsinin keçmiş rəisi Mövlan Şıxəliyevin hələ də həbs olunmamasının sirri barədə azadlıq.info yazıb. Qəzetin yazdığına görə, Mövlan Şıxəliyevin də adı digər MTN generalları kimi bir çox cinayətlərdə hallanır.

Mətbuatda onun əməlləri barədə çoxsaylı materiallar dərc edilib. Hətta “Azadlıq” qəzeti Dövlət Təhlükəsizlik Xidmətinin adlarının açıqlanmasını istəməyən bir qrup əməkdaşının müraciətini dərc etmişdi. Həmin müraciətdə Mövlan Şıxəliyevin adı hallanan cinayətlərdən bəhs edilirdi. MTN-də əsas cinayət işlərinin istintaqına əsas cavabdeh şəxs Mövlan Şıxəliyev olub. Bu baxımdan, onun azadlıqda qalması təəccüb doğurmaya bilməz. Bəs səbəb nədir?

Redaksiyamıza daxil olan məlumata görə, Mövlan Şıxəliyevin həbs olunmamasının sirri 2005-ci ildə MTN-in keçirdiyi “Qara kəmər” əməliyyatındadır. Qeyd edək ki, həmin əməliyyat zamanı DİN-də yuva salmış, Hacı Məmmədovun rəhbərlik etdiyi bildirilən banda zərərsizləşdirilmişdi. Məlumatda bildirilir ki, bu bandanın istintaqında şəxsən Mövlan Şıxəliyev bir neçə yüksək vəzifəli məmuru da dindirib. Həmin məmurların sırasında bu gün hüquq-mühafizə orqanlarında yüksək vəzifədə çalışanlar da var. Onların bu işlə bağlı hansı ifadələri verdiyi, hansısa kompromatlarının olub-olmadığını deyə bilmərik. Amma məlumatda bildirilir ki, məhz buna görə Mövlan Şıxəliyevi həbs etmək tərəddüdü var.

**Mühafizəçi ordusu varmış**

Moderator.az-da Eldar Mahmudovun mühafizə sistemi ilə bağlı maraqlı informasiya dərc edilib. Saytın özəl mənbədən əldə etdiyi məlumata görə, mühafizəçilərinin sayına görə ABŞ prezidentini belə kölgədə qoyan E.Mahmudovun rəsmi olaraq nə az-nə çox, düz 40 nəfər mühafizəçisi olub ki, bu da yalnız Azərbaycan deyil, dünya miqyasında analoqsuz göstərici hesab oluna bilər.

❑ **E.MƏMMƏDƏLİYEV**

# “Beynəlxalq Bank işi” - şahidlər danışır

## Bankın sabiq rəhbəri Cahangir Hacıyevin vəkili vəsatətlərlə çıxış edib



**Avqustun 31-də Azərbaycan Beynəlxalq Bankının keçmiş sədri Cahangir Hacıyev, Beynəlxalq Bankın Mərkəzi filialının direktorları olmuş İlqar Abdullayev və Yusif Ələkbərov, bankın inzibati binalarının mühafizəsini həyata keçirən “İnter Security” MMC-nin baş direktoru İbrahim Hüseynov və digərlərinin mühakiməsi davam etdirilib. Məhkəmə prosesi Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilir.**

Musavat.com xəbər verir ki, məhkəmə prosesində şahidlər ifadə verib, bankın sabiq rəhbəri Cahangir Hacıyevin vəkili vəsatətlərlə çıxış edib. C.Hacıyevin vəkili Fəxrəddin Mehdiyevin qaldırdığı vəsatətlərin birincisi Beynəlxalq Bankın layihələri ilə bağlı girov sazişlərinin bankdan alınaraq, məhkəməyə təqdim edilməsi ilə bağlı olub. Vəkil deyib ki, həmin sənədlər bu işin mülki xarakterli olduğunu sübut edir.

Digər vəsatət Beynəlxalq Bankla bağlı 2008-2014-cü illər arasında Vergilər Nazirliyində açılmış cinayət işi ilə bağlı olub. Vəkil deyib ki, yoxlamalardan sonra cinayət işinə xitam verilib. Onun sözlərinə görə, həmin sənədlər də məhkəməyə təqdim edilməlidir: “Bu işin taleyi həmin qərardan asılıdır. Həmin cinayət işində kreditlərin xərclənməsinə və digər işlərə hüquqi qiymət verilib. Həmin xitam qərarının Baş Prokurorluqdan alınaraq, cinayət işinə əlavə edilməsini xahiş edirik”.

Növbəti vəsatətdə vəkil Beynəlxalq Bankla “Aqrarkredit” QSC arasında imzalanmış çoxtərəfli sazişin məhkəməyə təqdim edilməsi ilə bağlı olub. F.Mehdiyev tərəflər arasında imzalanmış sənədlərin məhkəməyə təqdim edilməsini istəyib. O əlavə edib ki, həmin sazişlə indiki ittihamlar arasında ziddiyyətlər var. F.Mehdiyev Beynəlxalq Bankdan fiziki şəxslərə verilmiş kreditlərin bəzilərinin tam, bəzilərinin qismən, bəzilərinin isə ödənilmədiyini deyib. Vəkil həmin kreditlərlə bağlı bankların mərkəzləşdirilmiş reyesterindən çıxarışın alınmasını və məhkəməyə təqdim edilməsini istəyib. Vəkil “Azərinşaat” MMC-yə ayrılan kreditlərlə bağlı ayrıca cinayət işi olduğunu və orada olan audit rəyinin alınaraq məhkəməyə təqdim edilməsi ilə bağlı da vəsatət verib. Hakim bildirib ki, vəsatətlər şahidlərin dindirilməsindən sonra müzakirə ediləcək.

Məhkəmə prosesi şahidlərin ifadəsi ilə davam etdirilib.

**İlk olaraq “İnter Tekstil” fabrikinin əməkdaşı olan Zahid Bağırov ifadə verib. O bildirib ki, rəhbərlikdən ona baş ofisə gedərək sənədlərə qol çəkmək tapşırılıb:** “Bir maşınla apardılar. İşlə bağlı sənədə qol çəkdiyimi düşündüm. 250 manat maaş alırdım. Sonra da işdən çıxdım. Heç bir işdən də xəbərim yoxdur”.

**Şahid suallarla cavab olaraq rəhbərliyin kimliyi ilə bağlı bunları deyib:** “Kim olduğunu dəqiq bilmirəm. Dünyamin Xəlilovun adını çəkirdilər. Qol çəkməklə bağlı tapşırığı isə şirkətin müdiri olan Şakir Xəlilov verib”.

**Digər ifadə verən Samir Əliyev təqsirləndirilənlərdən Bakı Fındıq Emalı Zavodunun sabiq direktoru Azad Cavadovun bacanağı olduğunu və onun şirkətində işlədiyini deyib. O, 2011-ci ildə Azad Cavadov tərəfindən banka gedərək sənədlərin imzalanması üçün göstəriş aldığını deyib:** “Kredit götürüləcəkdi. Bu pul zavod üçün götürülürdü. Məbləğ 780 min 700 manat idi. İmzaladım və götürüldü”.

Prokuror deyib ki, kredit müqaviləsində bu kreditin təyinatı mənzil təmiri üçün göstərilib. S.Əliyev isə bundan məlumatlı olmadığını və həmin məbləğin müəssisənin borclarının ödənilməsi üçün alınmasından xəbərdar olduğunu söyləyib. Prokuror qeyd edib ki, həmin kredit üzrə 708 min əsas, 92 min isə faiz borcu var.

Azad Cavadovun digər dostu Mehdiyev də ifadəsində bildirib ki, Bakı Fındıq Emalı Zavodunun maliyyə problemlərinin həlli üçün ondan kredit müqaviləsini imzalaması istənilib. O da 750 min manatlıq kreditin müqaviləsini imzalayıb. Prokuror Fərid Nağıyev həmin kreditin Qubanın Qəçrəş kəndində istirahət zonasının tikilməsi məqsədilə götürüldüyünü söyləyib. Prokuror əlavə edib ki, həmin kredit üzrə 677 min əsas, 53 min isə faiz borcu qalır.

Azad Cavadovun keçmiş həyat yoldaşı Nailə Həsənova da ifadə verənlər arasında olub. O bildirib ki, 2011-ci ildə Azad Cavadov ona zəng edərək, bankın “Nərimanov” filialında sənədlərə qol çəkməsini xahiş edib. Kreditin məbləği isə 750 min manat olub. N.Həsənova həmin kreditlə bağlı ona heç vaxt zəngin edilmədiyini də əlavə edib. Prokuror həmin kredit üzrə 677 min əsas borcun, 88 min isə fazi borcunun qaldığını bildirib.

“İnter Security” şirkətinin digər əməkdaşları Zaur Hüseynov, Şaiq Mahmudov, Xaqani Axundov, Anar Babayev, Rasim Hacıyev, Müşviq Mahmudov da rəhbərliyin tapşırığına əsasən kredit müqavilələrinə imza atdıqlarını söyləyiblər.

Beynəlxalq Bankın “Nərimanov” filialının baş xəzinədarı İradə Cəfərova bildirib ki, şirkətin əməkdaşları gəlib, kredit müqavilələrinə qol çəkiblər. Daha sonra baş ofisdən pul götürülərək, həmin şəxslərə verilib.

Prokuror pulları kimin götürdüyünü soruşub. İ.Cəfərova da həmin şəxslərin özlərinin gəlib imza atdığını və pulu götürdüklərini deyib.

Daha sonra bankın “Nərimanov” filialının marketinq şöbəsinin müdiri Qalib Rzayev dindirilib. O bildirib ki, həmin vaxt filialın direktoru olmadığı üçün 8 kreditin verilməsinə qol çəkib: “Həmin şəxslərin özləri gəlib filialda qol çəkiblər”.

**Məhkəmə prosesi sentyabrın 2-də davam etdiriləcək.**

**Dünən Gürcüstanın baş naziri Georgi Kvirikaşvili Bakıda işgüzar səfərdə olub. Səfər çərçivəsində o, Azərbaycan prezidenti İlham Əliyev, baş nazir Artur Rəsi-Zadə ilə təkbətək və geniş tərkibdə görüşlər keçirib, danışıqlar aparıb. Səfərdə gürcü baş nazirini energetika naziri Kaxa Kaladze və qonşu ölkənin xarici işlər nazirinin müavini Gigi Gigiladze müşayiət ediblər.**

# İşğalçı ölkəyə iki mühüm qonşusundan sürpriz zərbə




# Bakı və Tiflis Ermənistanın izolyasiyasını sürətləndirir - düşmənin yuxusunu qaçıracaq qərar

## Gürcüstan baş nazirinin Azərbaycana qəfil səfərinin pərdəarxası; nazir Elmar Məmmədyarov Tiflisə prezident İlham Əliyevin xüsusi tapşırığı ilə gedibmiş; mesajda nələr olub? **Azərbaycanın dövlət başçısı:** "Regiondakı sabitlik energetika və nəqliyyat layihələrindən asılıdır"...

Maraqlıdır ki, Gürcüstan hökumətinin başçısı ölkəmizə Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov onunla Tiflisdə görüşdükdən cəmi iki gün sonra təşrif buyurub. Belə bir operativlik isə ən əvvəl Tiflisdə aparılan ikitərəfli danışıqların aktuallığına dəlalət edir. Görünür, həmin danışıqların yekunu kimi də gürcü baş nazirin Bakıya təcili səfər etməsi zərurəti yaranıb. Bəs söhbət hansı zərurətdən gedir?

Öncə onu qeyd edək ki, Gürcüstanla Azərbaycan artıq bir çox sahələr - iqtisadiyyat, energetika, kommunikasiya, son illər isə həm də müdafiə və təhlükəsizlik sahələri üzrə strateji tərəfdaş ölkələrdir. Sadalanan istiqamətlərdə əməkdaşlıq uğurla davam və inkişaf etdirilir. Azərbaycan həmçinin qonşu ölkənin əsas qaz tədarükçüsü və mühüm maliyyə investorlarından biridir. İki qonşu dövlətin münasibətlərində, demək olar, həllini tapmayan heç bir problem də yoxdur, qalmayıb. Nəhayət, bu əməkdaşlıq Türkiyə -Azərbaycan-Gürcüstan üçtərəfli formatında müvəffəqiyyətlə öz təsbitini tapıb və inkişaf edir.

***

Yada salaq ki, Tiflis səfəri zamanı Elmar Məmmədyarovla gürcü həmkarı və baş nazirinin görüşləri zamanı əsas müzakirə mövzuları energetika və nəqliyyat sahəsində əməkdaşlığın inkişafı, habelə regional təhlükəsizlik məsələləri olub. Görüşlərdən dərhal sonra gürcü baş nazirinin mətbuat xidməti Kvirikaşvilinin yaxın günlərdə Bakıya səfər edəcəyi və prezident İlham Əliyevlə görüşəcəyi barədə açıqlama vermişdi ki, bu da siyasi təhlilçilərin diqqətindən yayınmamışdı.

Doğrudan da, cəmi iki gün sonra Gürcüstan hökumətinin başçısı Azərbaycanda oldu. Buradan hasil olan ilkin qənaət belədir ki, Məmmədyarov - Kvirikaşvili görüşündə həqiqətən regional əhəmiyyətli çox mühüm məsələlər, o cümlədən aktuallıq kəsb edən siyasi xarakterli məsələlər müzakirə edilib və bu üzdən gürcü tərəfində təcili şəkildə Azərbaycan rəhbərliyi ilə görüş zərurəti yaranıb.

Yəni elə aktual mövzudan söhbət gedir ki, onun ən yüksək səviyyədə müzakirəsinə, ikitərəfli yüksək səviyyədə danışıqlar aparılmasına ehtiyac yaranıb *(Xatırladaq ki, parlamentli idarəçiliyə malik Gürcüstanda dövlətin əsas şəxsi baş nazirdir, prezident yox)*.

Bu xüsusda ehtimal mümkündür ki, Azərbaycan XİN başçısı Tiflisə məhz İlham Əliyevin xüsusi bir mesajını çatdırıb, yəni onun xüsusi tapşırığı ilə gedib. Söhbət nədən gedir?

***

**Hökumət qaynaqlarına yaxın mötəbər mənbələrə görə, söhbət öncəliklə Azərbaycan və Gürcüstan dövlətlərinin inkişafına ciddi şəkildə təsir edən iki strateji əhəmiyyətli layihədən gedir:**

*1.Xəzər şelfindən Qərb bazarlarına əlavə həcmdə təbii qazın çatdırılması üçün "Şahdəniz-2" qaz yatağının istismarı (Cənub Qaz Dəhlizinin genişləndirilməsi işinin sürətləndirilməsi);*

*2. Bakı-Tiflis-Qars dəmir yolunun inşasının vaxtında başa çatdırılması.*

Siyasi müşahidəçilərə görə, xüsusən də ikinci layihə təkcə Azərbaycan və Gürcüstandan ötrü deyil, bütövlükdə region üçün böyük önəm daşıyır. Məsələ ondadır ki, əgər Xəzərdən Avropaya doğru daha bir qaz kəmərinin çəkilişi (CQD - TANAP, TAP) artıq mövcud olan Bakı-Tiflis-Ərzurum qaz kəmərindən sonra sayca ikinci olacaqsa, Bakı-Tiflis-Qars dəmir yolu xətti bir ilk olacaq və ilk dəfə olaraq da Gürcüstanı Türkiyə və Avropa ilə birləşdirəcək. Ən önəmlisi, paralel surətdə işğalçı Ermənistanın iqtisadi və kommunikasiya blokadası, demək, həm də iqtisadi təcridi bununla daha da güclənmiş olacaq.

Təsadüfi deyil ki, ilin sonunda işə düşməsi gözlənilən bu strateji dəmir yolu arteriyasının tikintisi Ermənistanda daim narahatlıq yaradıb. Erməni lobbisi illər öncə hətta onun maliyyələşməsini əngəlləmək üçün dəridən-qabıqdan çıxıb, Qərb dövlətlərinə, ABŞ-a təzyiq eləməyə çalışıb. Lakin Azərbaycan layihənin əsas maliyyə sponsoru funksiyasını öz üzərinə götürdükdən sonra ermənilərin bütün arzuları puç olub getdi.

***

Beləliklə, sözügedən layihələrin gerçəkləşməsi üçün Bakı və Tiflisin artan birgə səyləri həm də təcavüzkar ölkənin iqtisadi durumunu daha ağır vəziyyətə gətirəcək, onun iqtisadiyyatının rüşeym halından çıxmasına əsla imkan verməyəcək. Bu yaxınlarda Moskva, Tehran və Bakı arasında razılaşdırılmış "Şimal-cənub" dəmiryolu layihəsinin də tezliklə reallaşacağını nəzərə alsaq, düşmən ölkədəki təlaşı başa düşmək çətin olmaz.

Bu yerdə onu da diqqətə çatdıraq ki, bir neçə gün öncə Bosfor boğazı altından "Mərmərə" tunelinin işə salınmasından sonra Bakı-Tiflis-Qars layihəsinin həyata keçməsi önündə heç bir texniki xarakterli əngəl qalmayıb. Bununla belə, ola bilsin, tərəflər bəzi logistik və maliyyə xarakterli məsələlərin həlli üçün əlavə məsləhətləşmələrə lüzum görüb. Gürcü nümayəndə heyətinin tərkibindən də bunu görmək mümkündür.

Ancaq nəzərə alsaq ki, liderlər nadir hallarda ön hazırlıqlarsız və təcili bir araya gəlirlər, o zaman ehtimal etmək olar ki, Bakı görüşləri yuxarıda vurğuladığımız hər iki istiqamətdə irəliyə doğru mühüm sıçrayışla yadda qalacaq. Dünən iki ölkə rəhbərləri arasında Bakıda aparılan danışıqlar qənaətimizi gücləndirmiş oldu.

Belə ki, gürcü baş naziri Giorgi Kvirikaşvilini qəbul edən prezident İlham Əliyev regiondakı sabitliyin energetika və nəqliyyat layihələrindən asılı olduğunu xüsusi vurğulayıb. **"Münasibətlərimiz tarixə, qardaşlığa, xalqlarımızın yaxın qonşuluğuna əsaslanır. Bu gün biz bütün sahələr üzrə - siyasi sahədə, iqtisadi sahədə fəal dialoq aparırıq. Bizi uğurla inkişaf edən, ölkələrimizə və xalqlarımıza fayda gətirən həm nəqliyyat, həm də energetika sahələrində layihələr birləşdirir. Biz ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafından çox məmnunuq. Əminəm ki, sizin səfəriniz gələcək əlaqələrimizin dərinləşməsinə, möhkəmlənməsinə xidmət edəcək. Bizi tarix, coğrafiya, maraqların üst-üstə düşməsi və artıq qeyd etdiyim kimi, iri transmilli energetika, nəqliyyat layihələri birləşdirir. Bu layihələrin reallaşmasından, uğurlu fəaliyyətindən ölkələrimizin və xalqlarımızın rifahı, həm də regionumuzdakı sabitlik asılıdır"** - ölkə başçısı deyib (APA).

Öz növbəsində Kvirikaşvili deyib: **"Mən həqiqətən qardaş ölkədə olmaqdan çox şadam. Xalqlarımızı çoxəsrlik dostluq bağlayır. Biz həqiqətən də strateji xarakter daşıyan münasibətlərimizin gələcək inkişafını hərtərəfli dəstəkləyirik. Sizin artıq qeyd etdiyiniz kimi, bizi xalqlarımızın rifahının yaxşılaşdırılması üçün vacib olan və xalqlarımız arasında gələcək dostluğun möhkəmləndirilməsinə xidmət edən dostluq, strateji, regional, qlobal xarakterli layihələr bağlayır".**

***

Heç şübhə yox ki, bu layihələr kimi digərləri də uğurla reallaşacaq və Ermənistan öz işğalçılıq siyasətini davam etdirdikcə onların hamısından kənarda saxlanacaq.

❑ **Analitik xidmət**



# BMT-nin 25 il işğalda olan torpaqlarla bağlı "xüsusi sənəd"i varmı?

## **Qabil Hüseynli:** "Xalqlar var ki, min ildən sonra torpağını qaytarır"

**Sentyabrın 2-3-də İrəvanda keçirilməsi planlaşdırılan qondarma "Dağlıq Qarabağ Respublikasının müstəqilliyinin 25 illiyi" ilə bağlı tədbir ləğv edilib. Bu barədə teleqraf.com-a Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev məlumat verib.**

H.Hacıyev tədbirin ləğvi ilə bağlı bunları deyib: "Keçmiş dövlət rəsmiləri, parlament üzvləri və ictimai şəxslərin dəvət edildiyi bu tədbir iştirakçılarının sonra işğal edilmiş Azərbaycan ərazilərinə səfəri nəzərdə tutulurdu. Siyasi və xarici siyasət məsələləri üzrə mərkəzin sədri Fabien Baussart bəyanatla çıxış edərək, bu təşəbbüsü ləğv etmək məcburiyyətində qaldığını bildirib".

**XİN rəsmisi bildirib ki, Ermənistanın qondarma rejimin "müstəqilliyinin 25 illiyi" bəhanəsi ilə gizlin şəkildə planlaşdırdığı bu təxribatçı tədbirlərin qarşısını almaq üçün Azərbaycan Xarici İşlər Nazirliyi 25 və 31 avqust tarixlərində bəyanatlarla çıxış edib və zəruri önləyici addımlar atılıb:** "Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri, xüsusilə Fransa və Böyük Britaniyadakı səfirlikləri tədbirin təşkilatçıları və dəvət olunan şəxslərlə izahedici və məlumatlandırıcı iş aparıb, birtərəfli və qərəzli xarakter daşıyan bu tədbirin münaqişənin həlli üzrə aparılan danışıqlar prosesinə xələl gətirdiyi bildirilib. Müsbət haldır ki, tədbirə dəvət almış şəxslərin bir çoxu regiondakı vəziyyətin həssaslığını bilərək iştirakdan imtina etmişdi".

Qeyd edək ki, qondarma tejimin elan edilməsinin üstündən artıq 25 il ötür. Azərbaycan ictimaiyyəti arasında işğal altında olan torpaqlarımızın geri qaytarılması ilə bağlı müxtəlif fikirlər var. Hətta belə iddialar var ki, guya BMT-də 25 il işğal altında olan ərazilərin azad edilməsinin mümkünsüz olması ilə bağlı "xüsusi sənəd" də var.

**Politoloq Qabil Hüseynli "Yeni Müsavat"a açıqlamasında BMT-nin belə bir sənədinin olmadığını qətiyyətlə bildirdi:** "Fələstin torpaqlarının işğalının üstündən 50 ildən çox vaxt ötür. Amma bu torpaqların geri qaytarılması heç zaman gündəmdən çıxmır. Ümumiyyətlə, beynəlxalq hüquqda işğalda olan ərazilərin ilhaqının müəyyən illərlə əhatələnmiş dövrü yoxdur. Bütün bunlar xalqın təxəyyülünün məhsuludur. Xalqlar var ki, min ildən sonra torpağını qaytarır. Ermənilər deyir ki, 70 ildən sonra Dağlıq Qarabağı özümüzə qaytarmışıq. Yalandan olsa da, bunu deyirlər. Dünya supergüclərinin dəstəyi ilə ermənilər torpaqlarımızı işğal etdilər. Unutmaq olmaz ki, 2-5 aprel savaşları Azərbaycanın həmin torpaqları istənilən vaxt geri qaytaracağını göstərdi. Bir şərtlə ki, ermənilərin havadarları bu məsələyə qarışmasınlar. Qondarma rejimin 25 illiyi ilə bağlı tədbirlər keçirmək üçün müəyyən cəhdlər edilməsinin heç bir önəmi yoxdur. Amerikanın Minsk Qrupundakı sədri açıq fikir ifadə etdi ki, ABŞ "Dağlıq Qarabağ Respublikası" adlı dövlət tanımır. Bütün bunlar onu göstərir ki, bu dövlətin de-yure tanınması mümkün deyil. Bunun ətrafında gedən proseslər mənasızdır. Bir faktı deyim ki, son məlumatlara görə, Dağlıq Qarabağda hazırda 45 min erməni var. Amma vaxtilə bu 75 min idi. Bu da ciddi faktdır. Əgər apreldə hücumlarımızı bir gün də davam etdirsəydik, torpaqlarımızın əminəm ki, əksər hissələri azad ediləcəkdi".

**Politoloq xalq arasında ərazilərimizin azad edilməsinin mümkünsüz olması ilə bağlı fikir səsləndirənlərə də cavab verdi:** "Cəmiyyət 2-5 aprelə qədər ordumuzun bu gücdə olduğunu görməmişdi. Belə fikirlər 2-5 aprel döyüşlərindən sonra səngiməlidir. Bu sözləri deyənlərin sayı minimuma enməlidir. Çünki xeyli torpaq, yüksəkliklər azad edildi. Çoxsaylı erməni əsgərləri məhv edildi. Düşmən ordumuzun zərbəsini daddı. İndiyə qədər belə şey olmamışdı. Hər gün Azərbaycan ordusu irəliyə doğru gedir. Ağzımızı yenidən sülh danışıqlarına dirəyiblər. Rusiyanın anlaşılmaz mövqeyi də meydana çıxıb. Bir tərəfdən sülh məsələsini önə çəkir, digər tərəfdə ermənilərlə birlikdə hərbi hissələr yaradır, pulsuz döyüş texnikasını göndərir. Amma hər şeyin bir sonu var. Bu oyunun da sonu olacaq. Xalqımız unutmasın ki, torpaqların işğaldan azad edilməsi üçün müəyyən ilin olması boş söhbətdir. Uzağı 5-10 il müddətinə Dağlıq Qarabağ geri qaytarılacaq. Geosiyasi vəziyyət hər keçən gün Azərbaycanın xeyrinə doğru irəliləyir".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 193 (6514) 1 sentyabr 2016



# Stokholmda Azərbaycan sindromu

Zamin HACI
zaminhaci@gmail.com

## Yaxud, irlandın bizə düşəni...

**Bakıda Avropa Oyunlarını qayıran Patrik Hikki adlı kişi Braziliyada bilet oğurluğunda suçlanıb türməyə salınandan bəri məni düşündürən bir məsələ var, öncə bunu sizlərlə bölüşüm, ürəyimdə qalmasın.**

Həmin kişi İrlandiya Olimpiya Komitəsinin sədri idi. İrlandiya dünyanın ən inkişaf eləmiş dövlətlərindən biridir. BMT insan inkişafı indeksində 2015-ci ildə 6-cı yeri tutub *(Müqayisə üçün, Azərbaycan 67-ci yerdədir).* Bəs bu adamı Azərbaycan kimi ölkələrdən rüşvət almağa, Braziliya kimi acından ölən üçüncü dünya dövlətlərində bilet oğurlamağa vadar edən nədir? İnsanın nəfsi, tamahı görün onu hara sürükləyir... Demək, tamahın inkişafa dəxli yoxdur.

Eyni zamanda o gündən bəri fikirləşirəm ki, ey dadi-bidad, bu irlandlara həmişə hörmətlə yanaşırdım, ancaq gör onlardan bizim bəxtimizə hansı fırıldaqçı düşdü... Təsəvvür elə, sivil dünya irlandları ingilis müstəmləkəsinə qarşı mübarizəsi, Samuel Bekketi, Ceyms Coysu, U 2 qrupu, turizmi, viskisi və sairə ilə tanıyır, biz isə Patrik Hikkisi ilə. Yazılası dərd deyil. Bizdəki populyar terminologiya ilə yazsam, Patrik müəllim irland həqiqətlərini dünyaya çatdırmaq işində böyük can qoyubdur *(Adı da irlandların pərəstiş elədiyi Müqəddəs Patrikin adından götürülüb, lap uyğun gəlir).*

İsveçdəki Azərbaycan səfirliyindən yenə şikayət yazıblar, onu dərc edim bu arada: "Prezidentin Azərbaycana turist cəlb eləmək üçün 4 ay öncəki fərmanıyla vizaların qiyməti 20 dollara salınıb. Ancaq bu, Stokholmdakı səfirliyə, deyəsən, aid olmayıb. Zəng edib soruşanda "bu fərman bizə çatmayıb deyirlər". Sanki fərman Bakıdan İsveçə eşşək arabası ilə yola salınıb. İsveçdə Azərbaycan vətəndaşının uşağı doğulanda doğum şəhadətnaməsi vermək üçün az qala valideynlərin ulu babasının doğum şəhadətnaməsini tələb edirlər. Mən xüsusi maraqlanmışam, İsveçdəki İran, Gürcüstan, Rusiya, Ukrayna, Türkiyə, Suriya, Özbəkistan, Qazaxıstan səfirliklərinə zəng vurub bu ölkələrin vətəndaşlarının İsveçdə uşağı dünyaya gələndə hansı sənədlərin lazım olduğunu soruşmuşam. Hamısı yalnız 3 sənəd tələb edir: nikah şəhadətnaməsi, doğum evindən arayış, valideynlərin pasportları. Bizim İsveçdəki səfirlik isə bundan əlavə hər iki valideynin doğum şəhadətnaməsini tələb edir. Başa düşülmür ki, əgər valideynin pasportu təqdim edilibsə, doğum şəhadətnaməsi nəyə lazımdır? Səfirlik absurd arqument gətirir: müharibə şəraitində yaşayırıq. Guya o biri dövlətlərdə sülhdür. Eyni zamanda bu sənədlər rüşvət üçün istənilir, çünki çox adam pul verib doğum şəhadətnaməsi olmadan da istədiyi sənədi alır. Bizim eşitdiyimizə görə, İsveçdəki səfir Allahşükür Paşazadənin yaxın qohumu olmasına arxayındır, o səbəbdən istədiyi qanunsuz hərəkəti edir. Bunların üzündən İsveçdən turistlər də Azərbaycana gəlmir, çünki viza almaq üçün gərək 15 gün əlləşəsən".

Məktub öz yerində, məndə zəhmətkeşlərimizin vətənə kor-koranə sədaqəti də heyrət doğurur. İsveçdə yaşayır, uşağı isə Azərbaycan vətəndaşı kimi qeydiyyata aldırmaq istəyir. Əgər insan buna məcbur deyilsə, niyə eləsin ki? Azərbaycan vətəndaşlığı o uşağa indi və yaxın gələcəkdə nə verəcək? İşsizlik, borclar, ağır sosial şərait, işğal, devalvasiya, inflyasiya, qanunsuzluqdan başqa hansı miras var? Böyük adamı yenə başa düşürəm, onsuz vətəni seçmirsən, birtəhər tale ilə barışıb yaşamaq olur. Ancaq yazıq təzə doğulan uşağın nə günahı var? Bəlkə də belə valideynləri İsveç qanunları, beynəlxalq insan haqları konvensiyaları əsasında uşaqlara zülm eləmək maddəsi ilə tutmaq lazımdır. Girov götürülən adamın onu girov saxlayana psixi bağlılığının yaranması haqda Stokholm sindromu deyilən bir hal var. Görünür, Stokholmda yaşayan azərbaycanlılar da bənzər sindromdan əziyyət çəkib onları uzun müddət girov saxlamış vətənin beləcə psixoloji əsirinə çevrilirlər. Azərbaycandan qaçırlar, ancaq içlərindəki, qəlblərindəki Azərbaycandan çıxa bilmirlər.

Guya konstitusiya referendumundan yazacaqdım, yenə əcnəbilər imkan vermədilər.

**Milli Məclisin deputatı, baş nazirin sabiq birinci müavini Vahid Əhmədov Azərbaycan kimi ölkədə baş nazirin 6 müavininin olmasına ehtiyac olmadığını bildirib. V.Əhmədov moderator.az-a deyib ki, ola bilər gələcəkdə vitse-prezidentlik institutu tam oturuşandan sonra Nazirlər Kabinetinin ləğvi gündəmə gəlsin. Bu gün üçünsə bu real deyil və Nazirlər Kabinetinin qalması hələ vacibdir:**

# Deputat baş nazir müavinlərinin ixtisarını istəyir

## Pənah Hüseyn: "Say çoxdur, ancaq həlledici problem bu deyil"



"Jurnalistlər bu barədə mənə çoxsaylı müraciətlər edirlər və görünür ki, mövzu aktual olduğundan təkrar gündəmə gətirirlər. Bir daha qeyd edim ki, vitse-prezidentlik institutu çoxdan müzakirə mövzusu idi. Hətta 1992-ci ildə AXC iqtidarı dönəmində də bu institutun yaradılması müzakirə olunurdu, vitse-prezidentlik yaradıldıqdan sonra Nazirlər Kabinetinin ləğvi nəzərdə tutulurdu. Amma sonradan bu məsələ unuduldu. Yəqin ki, cənab prezident bu məsələni gündəmə gətirməklə müəyyən perspektivli bir planın üzərində işləyir və bu institutun yaradılmasını vacib hesab edir. Amma ola bilər ki, gələcəkdə vitse-prezidentlik institutu tam oturuşandan sonra Nazirlər Kabinetinin ləğvi gündəmə gəlsin. Bu gün üçünsə bu real deyil və Nazirlər Kabinetinin qalması hələ vacibdir. Ona görə ki, çoxsaylı sərəncam və qərarlar verilirsə, bununla bağlı normativ sənədlər məhz Nazirlər Kabineti tərəfindən hazırlanır. Həmin sənədlər də minlərdir və biz onları görməsək də hazırlanması üçün çox böyük zəhmət sərf edildiyinin fərqindəyik. Bunların hazırlanması üçün çox yüksək hazırlıqlı mütəxəssislər lazımdır. Əlbəttə, ilkin mərhələdə Nazirlər Kabinetinin tərkibinə baxmaq olar və kadr islahatları aparılaraq aparatın xeyli yığcamlaşdırılmasına gedilə bilər. Tutaq ki, baş nazirin 6 müavini var, buna nə ehtiyac var? Mən cənab prezidentin yerinə olsaydım orada cəmisi iki müavin ştatı saxlayardım. Onlardan biri birinci müavin, digəri isə bütün sahələri kurasiya edən müavin olardı. Axı Azərbaycan nəhəng ölkə deyil və iqtisadiyyatımız da o həcmdə deyil ki, bu qədər baş nazir müavini saxlanılsın".

**Deputat baş nazir Artur Rasi-Zadənin baş nazir qalıb-qalmayacağı barədə suala cavabında onu tərifləyib:** "Artur Rasi-Zadə ilə mən özüm uzun müddət işləmişəm, indi də millət vəkili kimi vaxtaşırı təmaslarım olur. Hökumətdə yeganə adamdır ki, onunla istənilən vaxt üz-üzə və telefonla danışıb hər hansı məsələnin müzakirəsini aparmaq və ya problemin həllində real dəstək almaq mümkündür. Elə olmayıb ki, ona zəng vurum və danışa bilməyim, ola bilsin ki, iclasda da olanda yarım saat sonra özü arayıb nəyə görə zəng vurduğumla maraqlanır. Bir sözlə, mən onu ciddi, təcrübəli və peşəkar dövlət adamı kimi tanıyıram və hələ bilmək olmaz ki, sabah Artur müəllimin yerinə gələcək adam ondan yaxşı işləyəcək, ya yox. Onun yaşının qabardılmasını da qüsurlu hesab edirəm, kimin hansı yaşda dövlət və millət üçün faydalı olduğunu kənar müşahidə ilə müəyyənləşdirmək bəzən yetərsiz olur".

Qeyd edək ki, baş nazirin 6 müavini var. Birinci müavin Yaqub Eyyubovdur. Müavinlər Elçin Əfəndiyev, Əli Həsənov, Abid Şərifov, Əli Əhmədov və İsmət Abbasovdur. Qonşu Gürcüstanda baş nazirin iki müavini var. Bununla yanaşı, nazirlər də müavin hesab edilirlər.

**Keçmiş baş nazir Pənah Hüseyn isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, baş nazirin müavinlərinin sayı həqiqətən də çoxdur və sayın azaldılması lazımdır. Bununla belə, Pənah Hüseyn hesab edir ki, bu məsələ həlledici deyil. Ölkənin problemləri baş nazirin müavinlərinin sayının çox və ya az olması ilə həlledici şəkildə bağlı deyil:** "Yəni problem heç də baş nazirinin müavinlərinin sayı deyil. Amma prinsip etibarilə daim yeni strukturlar yaradılır, köhnələr ləğv edilir. Əlbəttə ki, maksimum çalışmaq lazımdır ki, mümkün qədər yığcam, qənaətcil hökumət strukturları formalaşsın. Hökumətlə bağlı əlbəttə ki, ciddi problemlər var və bu həll edilməlidir. İndiki şəraitdə həm Nazirlər Kabinetinin səlahiyyətlərinin genişləndirilməsi, onun daha mobil icra strukturuna çevrilməsi istiqamətində müxtəlif təkliflər verilir. Təkliflərin içərisində əhəmiyyətliləri var. Hakimiyyət qollarının mütənasib şəkildə təşkil olunması vacibdir. Nazirlər Kabinetinin Milli Məclis qarşısında hesabatlılığının real və gerçək olmasının təmin edilməsi zəruridir. Bu kimi məsələlər daha mühüm məsələlərdir. Ölkədə idarəçilikdə sistem dəyişikliyinə ehtiyac var. Bu olmadan baş nazirin müavinlərinin sayının az olması və ya çox olması həlledici deyil. Hakimiyyət strukturlarının heyətində dəyişikliklər olmalıdır. 20-25 il bir şəxsin istər nazir, istər baş nazir, istər nazir müavini vəzifəsində qalması idarəçiliyinə xeyirdən çox ziyan gətirir. Mühüm vəzifələrdə dəyişməzliyin özü də sistem problemləri ilə bağlıdır. Əvəz olunma məsələsi vaxtaşırı olaraq qanunlara uyğun şəkildə həyata keçirilməlidir. Hökumət idarəçiliyinə yeni nəfəsin, yeni şəxslərin gəlməsi vacibdir".

❑ **Etibar SEYİDAĞA**



# İlham Əliyev Gürcüstanın baş nazirini qəbul etdi

**Azərbaycan prezidenti İlham Əliyev avqustun 31-də Gürcüstanın baş naziri Giorgi Kvirikaşvilini qəbul edib. APA-nın məlumatına görə, qonağı salamlayan prezident İlham Əliyev bu səfərin gələcəkdə münasibətlərin möhkəmlənməsinə xidmət edəcəyinə əmin olduğunu bildirib: "Münasibətlərimiz tarixə, qardaşlığa, xalqlarımızın yaxın qonşuluğuna əsaslanır. Bu gün biz bütün sahələr üzrə - siyasi sahədə, iqtisadi sahədə fəal dialoq aparırıq.**

Bizi uğurla inkişaf edən, ölkələrimizə və xalqlarımıza fayda gətirən həm nəqliyyat, həm də energetika sahələrində layihələr birləşdirir. Biz ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafından çox məmnunuq. Əminəm ki, sizin səfəriniz gələcək əlaqələrimizin dərinləşməsinə, möhkəmlənməsinə xidmət edəcək. Bizi tarix, coğrafiya, maraqların üst-üstə düşməsi və mənim artıq qeyd etdiyim kimi, iri transmilli energetika, nəqliyyat layihələri birləşdirir. Bu layihələrin reallaşmasından, uğurlu fəaliyyətindən ölkələrimizin və xalqlarımızın rifahı, həm də regionumuzdakı sabitlik asılıdır".

**G. Kvirikaşvili isə bunları deyib:** "Mən həqiqətən qardaş ölkədə olmaqdan çox şadam. Xalqlarımızı çoxəsrlik dostluq bağlayır. Biz həqiqətən də strateji xarakter daşıyan münasibətlərimizin gələcək inkişafını hərtərəfli dəstəkləyirik. Sizin artıq qeyd etdiyiniz kimi, bizi xalqlarımızın rifahının yaxşılaşdırılması üçün vacib olan və xalqlarımız arasında gələcək dostluğun möhkəmləndirilməsinə xidmət edən dostluq, strateji, regional, qlobal xarakterli layihələr bağlayır".

Gürcüstanın baş naziri azərbaycanlı həmkarı Artur Rasizadə ilə də görüşüb.

Baş nazir Artur Rasizadə Azərbaycan-Gürcüstan əlaqələrinin bütün istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, humanitar və digər sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. Bildirildi ki, Gürcüstanın baş naziri Giorgi Kvirikaşvilinin Azərbaycana səfəri və bu çərçivədə aparılan danışıqlar ölkələrimiz arasındakı əlaqələrin inkişafına töhfə verəcək.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 193 (6514) 1 sentyabr 2016

# Prezidentlərin avqust görüşü niyə reallaşmadı - səbəblər

## Ümidlər indi də sentyabra adlayır; ekspertlər Qarabağ məsələsində qeyri-müəyyənliyin davam edəcəyi təqdirdə payızda yeni hərbi eskalasiyanı istisna etmirlər; **rusiyalı analitik:** "Moskva Ermənistana təsir eləmək üçün yeni strategiya hazırlamalıdır..."



**Azərbaycan və Ermənistan prezidentlərinin Sankt-Peterburq görüşünün davamı gəlmədi. Xatırladaq ki, apreldəki 4 günlük müharibədən sonra reallaşan, Vyana görüşündən sonra sayca ikinci olan Peterburq görüşü problemin həlli ilə bağlı müəyyən ümidlər yaratmışdı. Hətta mərhələli həll planının artıq işə düşdüyünə əmin olan xeyli sayda ekspert var idi. ATƏT-in Minsk Qrupu həmsədrləri də bu xüsusda kifayət qədər optimist idilər.**

Məhz bu optimizmdən çıxış edərək, danışıqlarda növbəti mərhələ kimi prezidentlərin avqust ayının sonu üçün Parisdə, ardınca isə ABŞ-da növbəti görüşlərinin keçiriləcəyi deyilirdi. Bundan öncə isə hazırlıq üçün iki ölkənin xarici işlər nazirləri bir araya gəlməli idilər. Lakin göründüyü kimi, Peterburq görüşünün üstündən 2 aydan çox ötməsinə baxmayaraq, avqust görüşü reallaşmadı. Bəs səbəb?

Sualın cavabı yəqin ki, 50 faiz münaqişə tərəfləri ilə bağlıdırsa, bir o qədər də yəqin ki, vasitəçilərin passiv mövqeyi ilə ilgilidir. O vasitəçilər ki, sülh danışıqlarında uğursuzluğa görə məsuliyyəti ara-sıra münaqişə tərəflərinin üzərinə qoymağa çalışırlar. Məsələn, Rusiya prezidenti Vladimir Putin ötən ayın əvvəlində, Bakıya səfəri ərəfəsində verdiyi müsahibəsində bəyan etmişdi ki, problemin həlli üzrə anlaşmanı ən əvvəl münaqişə tərəfləri əldə eləməlidir, Rusiya isə bu anlaşmaya qarant dura bilər.

Keçən həftə sonu isə ABŞ dövlət departamenti rəsmisindən bənzər açıqlama gəldi. Departamentinin sanksiyaların tətbiq edilməsi üzrə koordinatoru Daniel Frid "Amerikanın səsi" radiosuna müsahibəsində bildirdi ki, "Dağlıq Qarabağ probleminin mövcud olmasına baxmayaraq tərəflər özlərini çox rahat aparır". Yəni əslində o da məsuliyyəti sırf Azərbaycan və Ermənistanın üstünə atdı, üstəlik, işğalçı ilə işğala məruz qalan arasında bərabərlik işarəsi qoydu.

Sitata diqqət edək: "ABŞ uzun illər ərzində Qarabağ məsələsinin ədalətli həlli üçün səy göstərib. Biz Minsk Qrupu çərçivəsində Fransa və Rusiya ilə işləmişik. Şəxsən mən özüm dövlət katibinin köməkçisi vəzifəsində işləyərkən bu problemin həlli üçün çalışmışam. Məndən qabaq və sonra işləyənlər də buna cəhd göstərib. Lakin alınmır. Hər iki tərəfin hökumətləri mövcud vəziyyətdə qalmaq istədiklərini və ya real nizamlama prosesinə başlamaq istədiklərini müəyyən etməlidirlər. Ancaq problem bundadır ki, hər iki ölkənin hakimiyyəti Qarabağ münaqişəsinə baxmayaraq özlərini həddən artıq arxayın hiss edir, onlar uzunmüddətli deyil, qısa müddətli perspektivi düşünürlər. Tərəflər nə istədiklərinə qərar verməlidirlər. Əgər sülh istəyirlərsə, ABŞ kömək etməyə hazırdır".

Göründüyü kimi, prezident Putinin, Rusiyanın yanaşmasına bənzər bir yanaşma ortadadır. Halbuki Ermənistanla Azərbaycan özləri heç vaxt ortaq dil tapa bilməz, çünki işğalçı ölkə müstəqil deyil, tamamilə Moskvadan asılıdır.

*****

Bəs Qarabağ ətrafındakı son durum yaxın perspektiv üçün daha çox nə vəd edir - sülh prosesində dönüş, yoxsa yeni hərbi qarşıdurma? Ekspertlər bu məsələdə çox da nikbin deyillər.

"Dağlıq Qarabağ probleminin tənzimlənməsi üzrə öncə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin, daha sonra isə prezidentlərin növbəti görüşü gözlənilir. Ancaq görüşün vaxtı, yeri və gündəliyi hələ məlum deyil. Rusiya xarici işlər nazirinin konkret təklifi var. Bunu Putinin də adına bağlayırlar". Bu sözləri Rasim Musabəyov deyib (axar.az).

**Onun sözlərinə görə, hazırda əsas məsələ sözügedən təkliflərin tərəflər üçün nə dərəcədə məqbul olması ilə bağlıdır:** "Bütün bunların hamısı növbəti görüşlərdə dəqiqləşəcək. Düzdür, təkliflər verilib, ancaq bununla bağlı münasibət bəlli deyil. İndi bu münasibət müəyyənləşəcək. Mövqelər yaxınlaşdırıldığı halda düşünürəm ki, prezidentlərin görüşü hazırlanacaq. Yox, yaxınlaşdırılmadığı halda vəziyyət kifayət qədər mürəkkəbləşəcək. Danışıqlarda tərpəniş olmazsa, payızda vəziyyət gərginləşə bilər".

*****

**Yaxın perspektivdə sülh danışıqlarının məhsuldar olacağı ilə bağlı nikbinliyi tanınmış rusiyalı analitik, tarixçi alim Oleq Kuznetsov da bölüşmür.** "İndiki anda İrəvanın Dağlıq Qarabağ ətrafında işğal etdiyi ərazilərdən könüllü şəkildə çıxacağını nə dərəcədə ehtimal eləmək olar, bu ərazilərin güc yolu ilə azad olunması ehtimalı artıbmı" sualına ekspert belə cavab verib: "Mənim tanıdığım ekspertlərin əksəriyyəti ermənilərin könüllü şəkildə Azərbaycanın 5 rayonunu de-işğalına gedəcəyini, faktiki, həll olunmuş hesab edirlər. Mən belə nikbinliyi bölüşmürəm. Ona görə ki, Ermənistanda prezident Serj Sərkisyandan savayı bu məsələ üzrə danışıqlarda iştiraka hazır olan real siyasətçilər görmürəm. İyulun ikinci yarısında Ermənistanda barışmaz ermənilər özlərini göstərdilər - hansılar ki, torpaqların bir qismini könüllü şəkildə qaytarmağın dərki baş qaldıran kimi hərbi qiyam qaldırmışdılar. Bunu demək lazımdır ki, Ermənistanın son 25 ildəki siyasəti ondan ibarət olub ki, yalnız hansısa şəkildə Qarabağ müharibəsində iştirak eləmiş və ya Azərbaycan ərazilərindəki işğalçı hərbi birləşmələrdə xidmət etmiş şəxslər hakimiyyətə buraxılsın. Bu adamlar hazırda respublikadakı siyasətçilərin əsas qatını təşkil edir. Onlar üçün işğal edilmiş ərazilərdən çıxmaq psixoloji cəhətdən qəbuledilməzdir. Bu səbəbdən Ermənistanın siyasi isteblişmenti bu məsələnin dinc yolla həllinə hazır deyil. Müvafiq sənədlər imzalananadək, geri buraxılan əraziləri Azərbaycan ordusu öz nəzarətinə götürənədək və dinc azərbaycanlı əhali öz yurd yerinə qayıdanadək şəxsən mənim üçün ərazilərin könüllü şəkildə azad ediləcəyi sualı açıq qalacaq".




**Analitikə görə, Qarabağa dair sülh nizamlanması prosesi yolun lap başlanğıcındadır.** "Bu məsələdə praktik müstəvidə hansısa ciddi irəliləyiş yoxdur. Yaxın zamanlarda da, fikrimcə, gözlənilmir. Danışıqların əsas moderatoru kimi, faktiki şəkildə Minsk Qrupunun bütün səlahiyyətlərini almış Rusiya özü üçün Ermənistanın siyasi elitasına təsir eləməkdən ötrü müəyyən yeni strategiya hazırlamalıdır. Bu təsir də erməniləri danışıqlarda hansısa irəliləyişə məcbur etməlidir. Məcburiyyət vasitəsi kimi təbii ki, Rusiya ərazisindəki erməni biznesinə təsir seçilə bilər. Bu, Ermənistan daxili situasiyaya təsir göstərmək üçün çox ciddi rıçaqdır - ki, Rusiya, hər halda, Cənubi Qafqazın bu regionunda öz sülhməramlı funksiyasını yerinə yetirə bilsin", - deyə ekspert sonda belə bir təkliflə çıxış edib.

*****

**Lakin Qarabağ məsələsində irəliləyiş məsələsində nikbin düşünən siyasi ekspertlər də var. Məsələn, Kremlin "danışan dil"lərindən biri sayılan politoloq Aleksandr Duqin hesab edir ki, nizamlama prosesində məhz Rusiyanın təşəbbüsü ilə tezliklə irəliləyiş əldə oluna bilər. O, eyni zamanda erməniləri qeyri-konstruktiv mövqe tutmaqda və Moskvaya qarşı naşükürlükdə ittiham edib.**

**Sitat:** "Müşahidələrimə görə, ermənilər bir çox məsələlərə qeyri-real münasibət bəsləyirlər. Rusiya onlara verdikcə, onlar yenə daha çox tələb edirlər. Ermənistan siyasətçilərində reallıq çatışmır. Onlara elə gəlir ki, Rusiya onlara daim borcludur. Bu gün ermənilər anlamır ki, Rusiyanın hesabına Dağlıq Qarabağın erməni əhalisi mövcudluğunu davam etdirir. Moskva İrəvandan tələb edir ki, onun strateji maraqlarını nəzərə alsın. İrəvan Moskvanın milli maraqlarını nəzərə almalıdır, onların başqa yolu yoxdur. Lakin onlar nə edir? Teatr qurub, isterikaya qapılıb ağlamağa başlayırlar. Mən bunu Rusiyada yaşayan ermənilərə də şamil etmək istərdim. Bu gün Rusiyanın marağı ilk növbədə Azərbaycanla yaxınlaşmaqdır. Moskva İrəvanla münasibətlərə ziyan vurmadan Bakı ilə yaxınlaşmaq siyasəti yürüdür. Bu, Kremlin birmənalı və sərt mövqeyidir. İlkin olaraq Dağlıq Qarabağ ətrafındakı beş rayon, daha sonra iki rayon qaytarılmalıdır. Növbəti mərhələdə isə Dağlıq Qarabağın statusu məsələsi müzakirə olunmalıdır. Rusiya üçün regionda müharibə qəbuledilməzdir. Məhz 90-cı illərdə Dağlıq Qarabağda baş verən müharibəyə görə Moskva ilə Bakı münasibətləri müttəfiqlik səviyyəsinə yaxınlaşmayıb. Ona görə də Kreml qısa müddətdə bu problemi həll edərək Bakı ilə daha çox yaxınlaşmaq istəyir. Bakı ilə Moskvanın yaxınlaşması Dağlıq Qarabağın sonsuz müddətdə Azərbaycanın tərkibində "de-yure", olmasını təmin edəcək. Ermənilərin bu plana qarşı olmasına baxmayaraq, Moskva ilə Bakının yaxınlaşması Dağlıq Qarabağ münaqişəsinin həlli tarixini daha da yaxınlaşdıracaq. Regionun rifahı üçün Rusiya-Azərbaycan strateji ittifaqı açılmazdır. Bunu hər iki ölkə yaxşı anlayır".

**Politoloq daha sonra ermənilərin ürəyini bir az da üzərək deyib:** "Rusiya-Azərbaycan-Türkiyə-İran dördlüyü də Dağlıq Qarabağ münaqişəsinin, o cümlədən Yaxın Şərqdəki problemin nizamlanmasında həlledici rola malikdir. Bu dördlük Qərbin qorxulu yuxusudur. Ona görə də Qərb əlindən gələni edəcək ki, bu dördlüyün arasında daim fikir ayrılığı olsun". O, "Lavrov planı"nın bu ilin sonuna yaxın, gələn ilin əvvəlindən tam sürətlə həyata keçirilməsinə başlanılacağını da deyib.

*****

Göründüyü kimi, yaxın perspektivdə Qarabağda sülh və müharibə mövzusunda təxminlər birmənalı deyil. Hansı ehtimalların real olacağını isə yəqin ki, payızda biləcəyik.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

# Bakıda dollar ajiotajı- 20 gün sonra nə olacaq?

## Maliyyə Bazarlarına Nəzarət Palatası banklara dollar satışı ilə bağlı xəbərdarlıq etdi; FED-in 20-21 sentyabr tarixlərində keçiriləcək toplantısından sonra isə...

**Azərbaycanda dollar bahalaşmaqda davam edir. Avqustun 31-də ABŞ dollarının məzənnəsi avqust ayının 30-u ilə müqayisədə 0,25% artaraq 1,6321 manat təşkil edib. Avro manata nisbətən bahalaşıb. Avrozonanın vahid valyutası 0,12% möhkəmlənərək 1,8209 manat olub. Amma əsas problem odur ki, banklar dollar satışını ya həyata keçirmir, ya da "qara bazar" qiymətinə satır.**



Maliyyə Bazarlarına Nəzarət Palatası (MBNP) valyuta mübadilə əməliyyatlarında müəyyən olunmuş faiz dəhlizi tələblərinə riayət edilməsi ilə bağlı kommersiya bankları və poçt rabitəsinin milli operatorlarına məktub göndərib.

Məktubda bildirilir ki, ictimaiyyətdən palataya bəzi banklar tərəfindən valyuta mübadilə əməliyyatlarının aparılması zamanı müəyyən olunmuş faiz dəhlizindən əlavə komisyon haqlarının alınması ilə bağlı məlumatlar daxil olur.

"Bu isə əksər hallarda mövcud faiz dəhlizinin pozulması ilə nəticələnə bilər. Qeyd olunanları nəzərə alaraq valyuta mübadilə əməliyyatlarında əlavə komisyon haqlarının tətbiqi zamanı formalaşan faktiki məzənnənin müəyyən olunmuş limit hədləri çərçivəsində təmin edilməsi banklara və poçt rabitəsinin milli operatorlarına tapşırılır. Xahiş edirik işinizdə rəhbər tutasınız", - deyə məktubda vurğulanıb.

Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən bank xidməti istehlakçılarının hüquqlarının qorunması və müştəri bank münasibətlərində bank xidmətlərinin dəyərinin şəffaflığının təmin edilməsi prioritet vəzifələrdən biri olaraq daim diqqətdə saxlanılır.

Bank sektorunda çalışanlar bildirib ki, son zamanlar palata bu sahədə nəzarəti gücləndirib. "Palata bankların filial və şöbələrində yoxlamalar aparır və 4%-lik marjanı pozan banklara qarşı xəbərdarlıq və sanksiyalar tətbiq edir" deyə, bank əməkdaşları əlavə ediblər.

Qeyd edək ki, Mərkəzi Bankın 08.01.2016-cı il tarixli məktubu ilə nağd və qeyri-nağd mübadilə əməliyyatları zamanı milli valyutanın mübadilə məzənnəsi hədəfləri həmin gün üçün Mərkəzi Bankın rəsmi məzənnəsindən 4± % məbləğində müəyyən edilib.

Bu arada ABŞ Mərkəzi Bankının (Fed) Boston üzrə sədri Erik Rozenqren dolların uçot dərəcəsi ilə bağlı açıqlama verib.

Erik Rozenqren Fed-in inflyasiya və digər iqtisadi hədəflərinə qısa zamanda çatmasından sonra faizlərin uzun müddət aşağı səviyyədə saxlanılmasının riskli olduğunu ifadə edib.

Daşınmaz əmlak qiymətlərinin sürətlə bahalaşmasına diqqət çəkən Rozenqren investorların həddindən artıq risk etdiyini vurğulayıb. Onun sözlərinə görə, bu sektor maliyyə sabitliyini təhlükəyə ata bilər.

Boston Fed sədri qiymətlərdəki ümumi enişin maliyyə sektoruna yayılacağını və bunun borclular üçün daha əlverişsiz kredit şərtləri ortaya çıxaracağını bildirib.

Rozenqren iqtisadiyyatın yavaş böyüdüyü bir dövrdə daşınmaz əmlakların yenidən qiymətlərinin resessiyaya (Recessus latın dilində geriləmə deməkdir) -iqtisadiyyatda (xüsusən də makro iqtisadiyyatda) məruz qala biləcəyi xəbərdarlığını edir. Onun sözlərinə görə, bu vəziyyət FED-in faiz artırımına getdiyi senaridən daha pis vəziyyət yaradacaq. (baku.ws).

Qeyd edək ki, FED-in pul siyasətlərini müəyyənləşdirən Federal Açıq Bazar Komitəsinin (FOMC) 20-21 sentyabr tarixlərində toplantısı keçiriləcək. İclasda dolların uçot dərəcəsinin artırılması məsələsi müzakirəyə çıxarılacaq və yekun qərar qəbul olunacaq. FED-in mühüm iclası yaxınlaşdıqca dollar bütün valyutalar qarşısında bahalaşmaqda davam edir.

❑ RÖYA



# İsrail şirkəti Beynəlxalq Bankı məhkəməyə verdi

## BSD CROWN LTD şirkəti bankın ona borclu olduğu 13.6 milyon dolları tələb edir

**İsrailin BSD CROWN LTD şirkəti Azərbaycan Beynəlxalq Bankına qarşı London Arbitraj Məhkəməsində iddia qaldırıb.Virtualaz.org xəbər verir ki, şirkət Azərbaycan bankının ona borclu olduğu 13.6 milyon dolları tələb edir. Məhkəmə baxışının vaxtı hələ müəyyən edilməyib.**

İsrail şirkəti ilə Azərbaycan Beynəlxalq Bankı arasında çəkişmə Cahangir Hacıyevin dövründə -2013-cü ildə bankda yerləşdirilmiş 13.6 milyon dollar (faizləri ilə birlikdə) şübhəli depozitlə bağlıdır.

BSD CROWN yüzlərlə adda ərzaq məhsullarının distributorluğunu həyata keçirən Willi Food şirkətinin səhmlərinin mülkiyyətçisidir. BSD CROWN LTD özü İsrailin BGİ investisiya şirkətinin törəmə şirkətidir. Şirkətin nəzarət səhm paketi bu yaxınlara qədər Ukraynanın Odessa vilayətindən olan yəhudi oliqarx Aleksandr Qranovskiyə məxsus olub. Hazırda o, Ukraynada bizneslə məşğuldur.

İsraildə bu qalmaqalın yaşandığı bir vaxtda BSD CROWN LTD şirkəti Azərbaycan Beynəlxalq Bankında yerləşdirdiyi depoziti geri almağa çalışıb. Lakin bu, baş tutmayıb.

Əvvəlcə şirkət həmin depozitin qaytarılmasına dair Beynəlxalq Bankla bu ilin mayında əldə edilmiş razılaşmanın yerinə yetirilmədiyinə dair bəyanat yaymışdı. Bəyanatda deyilirdi ki, şirkət Azərbaycanda likvidlik problemini və valyuta bazarında vəziyyəti nəzərə alaraq depozitin 2017-ci ilə qədər hissə-hissə qaytarılmasına dair Beynəlxalq Bankın təklifinə razılıq verib. Razılaşmaya əsasən iyun ayında 500 min dollar həcmində ilk ödəniş edilməliydi. Lakin bank cəmi 250 min dollar ödəyib.

Daha sonra BSD CROWN LTD bildirib ki, Azərbaycan Beynəlxalq Bankı həmin depozitin guya 2013-cü ildən etibarən "İsrael 18" adlı şirkətin götürdüyü kreditə görə girov kimi istifadə olunub. Həmin şirkətə isə BSD CROWN LTD şirkətinin daxil olduğu BGİ holdinqinin səhmdarları nəzarət edir.

Lakin şirkət bildirir ki, o, həmin depozitin üçüncü şirkət tərəfindən girov və bank təminatı kimi istifadə olunmasına heç vaxt razılıq verməyib. Və Azərbaycan Beynəlxalq Bankı da heç vaxt şirkətə bu haqda xəbərdarlıq etməyib. BSD CROWN LTD xəbərdarlıq etmişdi ki, depoziti geri almaq üçün məhkəməyə müraciət edəcək.

# Samir Şərifov devalvasiya ittihamından "suçsuz" çıxdı

## İqtisadçılar Cahangir Hacıyevin məhkəmədə dedikləri ilə razılaşmırlar, əksinə...

**Beynəlxalq Bankın sabiq sədri Cahangir Hacıyev avqustun 24-də keçirilən məhkəmə prosesində maliyyə naziri Samir Şərifovun ünvanına bəzi ittihamlar səsləndirib. C.Hacıyev iddia edib ki, ölkədə devalvasiyanın baş verməsinin səbəbkarı Samir Şərifovdur: "Samir Şərifov dövlət rəhbərliyini aldadıb. 2014-cü ildən Beynəlxalq Bank 25 milyon xalis mənfəətlə çıxıb. Mən oxuyuram, görürəm və bilirəm ki, internetdə insanlar arasında Elman Rüstəmov haqqında pis-pis sözlər deyirlər. Onun devalvasiyanın səbəbkarı olduğu yazılır. Amma inanın ki, onun devalvasiyaya aidiyyəti yoxdur. O bunun əleyhinə idi. Bir gecənin içində 34 faizlik devalvasiyanın tək müəllifi Samir Şərifovdur. Devalvasiya olmalı idi. Ancaq bu şəkildə yox, tədricən. Hamı bilsin ki, bunun günahkarı Samir Şərifovdur".**



Qeyd edək ki, bundan əvvəl də mətbuatda bir neçə dəfə oxşar fikirlər yazılıb. İddia edilib ki, kəskin devalvasiyanın tərəfdarı məhz S.Şərifov olub və öz fikirlərini əsaslandıraraq manatın kəskin ucuzlaşdırılmasına nail ola bilib. Ekspertlər yenidən məhkəmə müstəvisində səsləndirilən bu fikrə münasibət bildiriblər. Keçmiş bankirin dediklərinə münasibət birmənalı deyil.

**Ekspert Qadir İbrahimli** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, devalvasiya planını hansısa fərdin ayağına yazmaq düzgün deyil: "Peşəkar yanaşma deyil. Ola bilər ki, kimsə hansısa fikir tərəfdarı ola bilər, belə məsələlər adətən kollegial şəkildə qəbul olunur. Yəni burada həm maliyyə nazirinin, həm Mərkəzi Bank sədrinin, həm iqtisadiyyat nazirinin məsuliyyət payı var. Bu məsələlər konkret müzakirələrdən sonra qəbul edilib. İkinci tərəfdən, dövlət başçısı yanvar ayında, devalvasiyadan əvvəl bildirmişdi ki, manatın kursunu artıq indiki şərtlər daxilində saxlamaq olmaz. O başqa məsələdir ki, belə kəskin devalvasiya ilə bağlı qərarın qəbul edilməsində fərdlərin müəyyən payı var. O cümlədən Cahangir Hacıyevin payı var. Çünki devalvasiya ilə bağlı prezidentin xəbərdarlığından sonra Beynəlxalq Bankın rəhbəri özünə yaxın şəxslər vasitəsilə 6 milyard manata yaxın vəsaiti dollara çevirə bilmişdi. Dövlət başçısı özü də devalvasiyadan sonra dolayısı ilə bu məsələyə toxunmuşdu".

**İqtisadçı alim Vüqar Bayramov isə musavat.com-a qeyd edib ki, qərarlar birbaşa Mərkəzi Bank, yaxud Maliyyə Nazirliyi tərəfindən deyil, daha çox müzakirə edilmiş formada verilib:** "Həmin dövrdə Maliyyə Nazirliyinin fiskal deyil, həm də monetar siyasətə təsir imkanları geniş idi. Devalvasiya ilə bağlı qərarın yalnız Mərkəzi Bank tərəfindən verildiyini də güman etmirəm. Həmin qərara xüsusən də maliyyə nazirinin təsiri olub. Amma kim həmin qərarın verilməsində daha çox maraqlı olub, bunu söyləmək çətindir. Bu, mətbəxdə müzakirə olunan məsələlərdir, açıq deyil. Cahangir Hacıyevin açıqlamasına gəldikdə isə deyə bilərəm ki, o, vəzifəsində olan zaman devalvasiya ilə bağlı mətbuata heç bir açıqlama verməyib".

**Ekspert Əkrəm Həsənov isə "xəbər365"ə devalvasiyanın Samir Şərifovun istəyi ilə baş vermədiyini deyib:** "Devalvasiya obyektiv bir prosesdir. Bu proses Azərbaycanda ona görə baş verib ki, ölkənin dollar gəlirləri və dollar ehtiyatları azalıb. Təbii ki, dollar ehtiyatı azalan halda devalvasiya qaçılmaz idi. Əslində Azərbaycanda devalvasiya bir neçə il bundan əvvəl baş verməli idi. Hətta Elman Rüstəmov Moskvada 2010-cu ildə müdafiə etdiyi doktorluq dissertasiyasında belə yazmışdı ki, neftin pik həddi Azərbaycanda 2011-ci ildir. Buna görə də problemlərə hazırlıqlı olmaq və valyuta siyasətini dəyişmək lazımdır. Elmar Rüstəmov elmi əsərində bunu yazmışdı, amma praktikada tətbiq etmədi. Yəni Azərbaycanda tədricən devalvasiya başlamalı idi, 2012-ci ildən olmalı idi. Belə olsaydı, Azərbaycan bu qədər problemlə üzləşməzdi".

**İqtisadçının sözlərinə görə, devalvasiyanın baş verməsində Cahangir Hacıyevin rolu daha çoxdur:** "2015-ci ilin əvvəlində Mərkəzi Bank manatın məzənnəsini zorla saxlamışdı. İmkan yaratmışdı ki, banklar dollar alveri ilə məşğul olsunlar, dolları kütləvi şəkildə alırdılar, Cahangir Hacıyev də o cümlədən. Bununla da Azərbaycanın valyuta ehtiyatlarını azaldırdılar. Samir Şərifov da belə vəziyyətdə dövlətin maliyyə sisteminə cavabdeh şəxs kimi Azərbaycanın valyuta ehtiyatlarının azalmasının qarşısını aldı. Devalvasiya məhz buna görə lazım idi ki, valyuta ehtiyatlarımız tam bitməsin. Bu baxımdan, Samir Şərifov Azərbaycan dövlətinə pislik etməyib. Əksinə, Cahangir Hacıyevlə Elman Rüstəmovun etdiyi pisliyin, yəni kütləvi şəkildə dollar alaraq Azərbaycanın valyuta ehtiyatlarının azalmasının qarşısını alıb. Samir Şərifovu devalvasiyada günahlandırmaq axmaqlıq olardı. Samir Şərifovu başqa məsələdə günahlandırmaq olar, o da Beynəlxalq Bankın fəaliyyətinə görə. Yəni Beynəlxalq Bankın kimə gəldi, necə gəldi iri məbləğlərdə kredit verməsinə görə. Buna görə Samir Şərifovu günahlandırmaq olar, milli valyutanın devalvasiyasına görə yox".

**İqtisadçı-ekspert Qubad İbadoğlu da hesab edir ki, Samir Şərifovun təklifi düzgün qərar olub:** "Devalvasiya bir növ zərurətə çevrilmişdi. Azərbaycanın iqtisadiyyatı haqqında məlumatı olan və onun o vaxtkı durumunu təhlil edən hər bir şəxs bilir ki, həm daxili, həm də xarici faktorlardan asılı vəziyyətdə, eyni zamanda təzyiq altında olan manatı saxlamaq üçün ölkədə valyuta bazarını devalvasiya hesabına tənzimləməkdən başqa alternativ yox idi. Ona görə mən hesab etmirəm ki, Samir Şərifovun devalvasiya ilə bağlı təklifi düzgün olmayıb və vaxtında həyata keçirilməsi səhvdir".

❑ Röya RƏFİYEVA

# Çovdarov günbəgün özünü öldürür - 12 kq arıqlayıb

## Mədəsi olmayan odioz general məhkəmə qarşısına çıxmaq istəmir, bunun üçünsə bir yol qalır...

**Ləğv edilimiş Milli Təhlükəsizlik Nazirliyinin Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general Akif Çovdarov aclığı davam etdirir. Onun vəkili Sadiq Rəsulovun sözlərinə görə, avqustun 19-dan aclıq edən müvəkkili ötən günlər ərzində 12 kiloqram arıqlayıb.**



Hazırda Bakı İstintaq Təcridxanasının tibb-sanitar hissəsində saxlanılan Akif Çovdarov barəsindəki cinayət işinin materialları ilə tanış olmaq üçün istintaqın ona az vaxt verdiyini deməklə etiraz edir, çörək yemir. Belə fikirlər var ki, A.Çovdarov düşdüyü durumla heç cür razılaşa bilmir. MTN-dəki geniş kabinetindən qandallanaraq komfortu olmayan, saxlama şəraiti adi məişət səviyyəsindən o yana keçməyən bir kameraya salınmasını həzm edə bilmir. O, ittiham olunduğu maddələr üzrə barəsində elə də yüngül olmayan bir hökmün çıxarılacağının da fərqindədir. İş materialları ilə tanış olmağı ilə olmamağı arasında da ciddi bir fərq yoxdur. Vəzifədə olduğu illər ərzində yol verdiyi cinayətlərin bir qisminin ittiham aktında əks olunması A.Çovdarov uzun illər həbsdə saxlamağa, barəsində 3 beşilliyi aşan hökm çıxarmağa yetir. Belə bir halda odioz general niyə aclıq edir?

Onun vəkilinin sağlamlığı ilə bağlı açıqladığı, xüsusilə mədəsinin olmadığı haqda məlumat dəqiqdirsə, Akif Çovdarov faktiki "xarakiri"yə baş vurub. Mədəsiz adamın aclığı özünü öldürməyə, intihara bərabər addımdır. Belə görünür ki, A.Çovdarov özünü öldürməklə ittihamlardan yaxa qurtarmağı, bu yolla düşdüyü durumdan qurtulmağı qərarlaşdırıb. Gununsesi.info yazıb ki, A.Çovdarov onunla görüşmək üçün Bakı İstintaq Təcridxanasına yollanan yaxınları ilə də görüşdən imtina edib. Artıq taleyi ilə barışan general yaşamaq istəmədiyini və aclığı ölənə qədər davam etdirəcəyini bəyan edib.

**"Yeni Müsavat"ın əməkdaşı A.Çovdarovun sağlıq durumu, keçirdiyi aclıq aksiyasının qeydiyyata alınıb-alınmaması və digər suallarla Ədliyyə Nazirliyi Tibb Baş İdarəsinin rəis müavini İftixar Qurbanova müraciət edib. Rəis müavini deyib ki, hazırda Çovdarovun səhhəti stabildir:** "Onun həyatı üçün təhlükəli hal yoxdur".

**İ.Qurbanov A.Çovdarovun aclıq etməsinin qeydiyyata alınıb-alınmaması ilə bağlı suala "bizdə belə bir rəsmi məlumat yoxdur" deyə cavab verib. Rəis müavini həbsdəki generalın aclıq etməsi səbəbindən tibb-sanitar hissədə saxlanılan digər məhkumlardan təcrid edilib-edilməməsi məsələsinə də aydınlıq gətirib:** "Tibb sanitar hissəsində o necə təcrid edilə bilər?"

**"Sabiq idarə rəisinə vaxt veriləcək, yoxsa istintaq artıq yekunlaşıb" sualını isə Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov cavablandırıb. E.Sultanov "Yeni Müsavat" əməkdaşına bildirib ki, artıq ibtidai istintaq bitib:** "Baş Prokurorluğun Ağır Cinayətlərə dair İşlər üzrə İstintaq İdarəsinin müstəntiqi həmin cinayət işinin ibtidai istintaqının qurtarması barədə təqsirləndirilən şəxs Akif Çovdarov və onun müdafiəçilərinə məlumat verib. Cinayət işinin materialları tanış olmaq üçün həmin şəxslərə təqdim olunub".

**Xidmət rəhbəri "Cinayət işi nə vaxt məhkəməyə göndəriləcək" sualına cavab olaraq bildirdi ki, prosessual qanunvericiliyin tələblərinə uyğun olaraq ittiham aktı tərtib edilməzdən əvvəl təqsirləndirilən şəxs və onun müdafiəçiləri, cinayət prosesinin digər iştirakçıları cinayət işinin materialları ilə tanış edilirlər:** "Cinayət işinin materialları ilə tanış olduqdan sonra təqsirlədirilən şəxs və ya onun müdafiəçiləri vəsatətlər verə bilərlər".

E.Sultanov bildirdi ki, hazırda cinayət işi məhkəməyə göndərilmək ərəfəsindədir.

❑ E.MƏMMƏDƏLİYEV

# İslam Partiyasının lideri müddətsiz aclıq aksiyasına başlayıb

**Həbsdə olan Azərbaycan İslam Partiyasının (AİP) lideri Mövsüm Səmədov sentyabrın 26-da keçirilməsi planlaşdırılan konstitusiyaya dəyişikliklər aktına etiraz olaraq müddətsiz aclıq aksiyasına başlayıb. Bu barədə "islaminsesi" saytına M. Səmədovun saxlandığı Qobustan həbsxanasında onunla görüşən vəkil Yalçın İmanov məlumat verib.**



Mövsüm Səmədov

M.Səmədov aksiyası ilə həmçinin Tale Bağırzadə və Nardaran hadisələrinə görə tutulan şəxslərə qarşı qanunsuzluğa etiraz etdiyini də deyib. Vəkil deyir ki, Mövsüm Səmədovda ümumi halsızlıq yaranıb. AİP lideri deyib ki, həbs ediləndən bəri mütəmadi oruc tutduğundan aclıq aksiyası onu o qədər də narahat etmir.

M.Səmədov müəssisə rəhbərliyinə aksiyanın qeydiyyata alınması və aksiyaya həkim nəzarəti olunması ilə bağlı müraciət etsə də, hələlik onun səhhətinə həkim nəzarəti yoxdur.

**Son durumla bağlı "Yeni Müsavat"a danışan Y.İmanov bunları dedi:** "Aclıq aksiyasına ayın 29-dan başlayıb. Bu barədə Qobustan həbsxanasının rəhbərliyini yazılı şəkildə məlumatlandırıb. Aclıq aksiyası müddətsizdir. Həm də həbsxana rəhbərliyinə həkim nəzarətinin olması ilə bağlı müraciət edib. Orada olduğum müddətdə Mövsüm Səmədovun səhhətinə heç bir həkim nəzarəti yox idi. Bu çox narahatedici məqamdır. Havaların bu şəraitdə isti olmasını, Mövsüm Səmədovun səhhətindəki problemləri nəzərə alsaq, ən azından həkim nəzarəti çox vacibdir. O, artıq iki ilə yaxındır Qobustan həbsxanasında saxlanılır".

Xatırladaq ki, M. Səmədov 2011-ci ilin yanvarında həbs olunub. O, hakimiyyəti zorla ələ keçirmə cəhdi və başqa ağır cinayətlərdə təqsirli bilinərək 12 il müddətinə azadlıqdan məhrum olunub.

❑ Cavanşir ABBASLI

# Amerika nədən kürdləri dəstəkləyir?

## Yaxın Şərqdə şərtlər və Qərbin kürdlərlə bağlı siyasətinin pərdəarxası

**Türkiyə ordusunun Suriyaya daxil olması Vaşinqton-Ankara münasibətlərini yenidən gərginləşdirib. Məsələ ondadır ki, Cerablusu azad etdikdən sonra Türkiyə ordusu və dəstək qüvvələri cənuba - PYD\YPG-nin nəzarətində olan Menbicə yaxınlaşır. Burda isə artıq kürdlərlə savaş qaçılmaz olur. Çünki Ankara daha əvvəldən bəyan edib ki, Suriya əməliyyatının əsas hədəfi kürdlərin Suriya-Türkiyə sərhədlərindən uzaqlaşması, konkret olaraq Fəratıl sağ sahilinə çəkilməsini tələb edir.**



Ancaq kürdlər son iki ildə Suriyada radikal islamçı qruplar arasında baş verən savaşlar nəticəsində Türkiyə sərhədində böyük bir ərazini nəzarət altına alıblar. İndi isə Türkiyə ordusu əməliyyatlara qatılıb və artıq bir neçə bölgədə YPG ilə toqquşmalar baş verib. Hələlik Türkiyə ordusu ilə kürdlər arasında açıq toqquşma olmasa da, YPG və Azad Suriya Ordusu qruplaşması arasında silahlı qarşıdurmalar qeydə alınıb. Əgər kürdlər geri çəkilməsə, proseslərin gedişi Türkiyə ordusu ilə kürdlərin toqquşmasını qaçılmaz edir. Çünki Türkiyə hökumət rəsmiləri bəyan edib ki, kürdlər Fəratın sağ sahilinə çəkilincəyə qədər əməliyyat davam edəcək. Görünən odur ki, kürdlər ələ keçirdikləri bölgələri verməkdə maraqlı deyillər.

Türkiyə ordusunun kürdlərlə qarşıdurmaya girməsi Vaşinqtonda ciddi narazılıqla qarşılanıb. Ağ Ev, daha sonra Pentaqon və Prezident Obamanın İŞİD-lə mübarizə üzrə xüsusi təmsilçisinin Türkiyəni əməliyyatları dayandırmağa çağırışları Ankaranın etirazı ilə qarşılanıb. Türkiyə XİN-in yaydığı rəsmi açıqlamada hərbi əməliyyatların Türkiyəni təhdid edən terror təhlükəsi aradan qalxana qədər davam edəcəyi bildirilir. Eyni zamanda Ankara Vaşinqtonun iyun ayında Menbic əməliyyatından sonra kürd qüvvələrinin Fəratın sol sahilinə çəkiləcəyi ilə bağlı sözü yerinə yetirməsini tələb edib.

Qeyd edək ki, ötən gün ABŞ Mərkəzi Qüvvələr Komandanlığının sözçüsü polkovnik Con Tomas Cerablusun cənubunda Türkiyə ordusu və kürdlər arasında toqquşmaların dayandırılması haqqında razılaşma əldə olunduğunu bəyan etsə də, Türkiyə ordu qaynaqları məlumatı təkzib edib. Ağ Evin təhlükəsizlik üzrə məsləhətçisi Ben Rhodes isə bildirib ki, ABŞ Türkiyənin İŞİD-ə qarşı əməliyyatlarını dəstəkləsə də, kürdlərə (SDG) qarşı əməliyyatlarını və cənuba doğru irəliləməsini dəstəkləmirik: **"Dəstəkləmədiyimiz fəaliyyətlər cənuba doğru hərəkət və dəstək verdiyimiz müxaliflər olan Suriya Demokratik Qüvvələrinə qarşı savaşmasıdır. Türkiyəyə mesajımız açıq oldu. Biz İŞİD-ə qarşı savaşı dəstəkləyirik".**

Qeyd edək ki, ABŞ müdafiə naziri də Türkiyə hökumətinə və kürdlərə müraciət edərək toqquşmalara son qoyub İŞİD-ə qarşı savaşa səsləyib.

Türkiyə ordusunun avqustun 24-də səhər saatlarında başlatdığı "Fırat Kalkanı" əməliyyatı nəticəsində quru qoşunları hərbi aviasiyanın müşayiəti ilə Suriya ərazisinə daxil olub. Qısa vaxtda 20-dək kənd və Cerablus şəhəri İŞİD-dən təmizlənib. Ancaq cənuba doğru irəliləyən Türk ordusu ilə kürdlər arasında toqquşma olub. Kürd silahlıları iki Türkiyə tankını vurub. Bundan sonra Türkiyə qırıcıları YPG mövqelərini bombalayıb və 25 silahlı öldürülüb.

ABŞ və Qərb ölkələrinin kürdləri Suriyada, o cümlədən İraqda bu qədər açıq şəkildə dəstəkləməsi bu prosesdə daha çox diqqəti çəkdi. ABŞ hökuməti ən yüksək səviyyədə Türkiyə hökumətinə çağırış edərək kürdlərlə qarşıdurmanı dayandırmağa çağırdı. Hətta vasitəçilik təklifi etdi. Yeri gəlmişkən, Menbic döyüşlərdə həlak olan 3 YPG döyüşçüsü ABŞ vətəndaşı olub və onların cəsədlərini bugünlərdə vətənlərinə yola salıblar. Qərb ölkələri son illərdə kürd silahlılarını Suriya və İraqda hərtərəfli dəstəkləyib, silah, maddi və ərzaq yardımı edib, amerikalı təlimatçılar kürdlərə təlim keçiblər.

ABŞ-ın və bütövlükdə Qərbin kürdlərə bu qədər açıq və hərtərəfli dəstəyinin səbəbləri isə bir neçə mühüm amillə izah olunur. Məsələ ondadır ki, kürdlər Yaxın Şərqin 4 ölkəsinin ərazisində ciddi çəkiyə malik milli azlıq hesab olunur. Türkiyə, İran, İraq və Suriyada hər birində bir neçə milyon kürd əhalisi var. Və bu qruplar ciddi təşkilatlanıb, siyasi və hərbi qruplaşmaları mövcuddur. İraq istisna olmaqla, bu ölkələrin heç birində kürdlərin muxtariyyəti yoxdur. Ancaq İraqın Amerika tərəfindən işğalından sonra bu ölkədə, Suriyada daxili müharibə başladıqdan sonra isə Suriyada kürdlərin siyasi hüquqlarını alması üçün fürsət yarandı.

Qamışlıda formalaşan PYD və onun hərbi qanadı YPG çox tezliklə Suriyada kürdlərin yaşadığı bölgələrdə nəzarəti ələ aldı. 2014-cü ildə İraq və Suriyada İŞİD problemi meydana çıxanda Qərb yalnız kürdlərlə əməkdaşlıq etməyə başladı. Çünki Türkiyə daha çox islamçı qruplarla əməkdaşlıq edir, müstəqil güc kimi çıxış edirdi. Qərb isə daha sekulyar, radikal islamçıların hədəfində olan (İŞİD-in əsas rəqiblərindən biri kürdlər idi - K.R.) kürdlər Qərbin əsas sadiq müttəfiqlərinə çevrildi. Ən əsası isə kürdlər bölgədə nisbətə sıxışdırılmış və Qərbə yeganə nicat kimi baxan etnik siyasi qrup idi.

Bundan başqa, regionun yenidən şəkillləndirilməsində kürd qruplarının iştirakı Qərbin də maraqlarını təmin edir. Bununla kürdlər dövlət qurmaq və bölgənin yenidən formalaşdırılmasında aktiv iştirak etmək imkanı əldə edəcək və beləliklə Yaxın Şərqin 3 dominant xalqı olan türklər, ərəblər və farsların arasında 4-cü etnik qrup olaraq kürdlər daxil olacaq.

Ancaq Qərbin bu planı yalnız Suriya və İraq deyil, eyni zamanda Türkiyəni (bölücü PKK Türkiyənin cənub-şərq vilayətlərini ayırmaq istəyir - K.R.) və növbəti mərhələdə İranı təhdid edir. Bu səbəbdən də Qərbin kürdlərə artan dəstəyi indi yalnız Əsəd və İraq hakimiyyətini deyil, eyni zamanda Ankaranı da narahat etməyə başlayıb. Çünki hər kəs artıq bu gedişatın hara apardığını açıq şəkildə görür. Bu səbəbdən də indi Ankara təbii olaraq eyni taleni paylaşdığı (təbii olaraq - K.R.) İranla və hətta Əsədlə danışmağa, anlaşmağa hazırdır. Çünki əks təqdirdə, gedişat Türkiyənin özünün parçalanmasına aparır. Məhz bu səbəbdən indi Ankara kürd güclənməsinə qarşı hərbi güclə təzyiq edir, eyni zamanda İran və hətta Dəməşqlə koordinasiyalı fəaliyyətə belə razıdır.

Beləliklə, nəticə etibarı ilə Yaxın Şərqdə siyasi şərtlər indi Türkiyəyə Qərblə eyni cəbhədə dayanmağa imkan vermir. İndi hər şey region ölkələrinin siyasi bəsirətindən asılı olacaq. 100 il əvvəl olduğu kimi kürdlərin böyük güclərin oyunlarına qurban verilməsi də mümkündür, yaxud da daha fəal olub, bölgədəki və dünyadakı şərtlərdən istifadə edərək dövlət qurmaq imkanları da var. Bu isə indi daha çox Türkiyə, İran və eləcə də böyük ölçüdə Rusiyadan asılı olacaq.

❑ Kənan RÖVŞƏNOĞLU

YENİ MÜSAVAT
N 193 (6514) 1 sentyabr 2016

# Avropa Birliyinin Ərdoğan şərtinin pərdəarxası



Politoloqlar hesab edirlər ki, Avropa Birliyi növbəti bəhanəsini Ərdoğanın adı altında gizlədir...

**Avropa Birliyi Türkiyənin bu quruma üzv ola biləcəyi ilə bağlı növbəti şərtini açıqlayıb. Belə ki, Türkiyə mediasının məlumatına görə, Almaniyanın "Bild" qəzetinə müsahibə verən birliyin komissarı Günter Ottinger rəsmi Ankaranın yalnız Rəcəb Tayyib Ərdoğanın hakimiyyəti bitdikdən sonra Avropa Birliyinə üzv olmağa ümid edə biləcəyini deyib.**

Jurnalistin Ottingerin 2013-cü ildə dediyi "Avropa Birliyi Türkiyəyə üzvlük üçün yalvaracaq" sözlərini xatırlatmasına komissar belə cavab verib: "Bu, Türkiyənin Avropa Birliyi üçün iqtisadi və coğrafi baxımdan strateji bir ölkə olduğunu vurğulamaq üçün deyilmiş söz idi. Ancaq Ərdoğan hökuməti ilə münasibət baxımından mümkün deyil. İndiki vəziyyətdə 10 illik müddət də Avropa Birliyinə üzvlük üçün yetərli deyil. Bu mövzu Ərdoğan hakimiyyətindən sonrakı məsələdir".

**Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan politoloq Mübariz Əhmədoğlu bildirib ki, bu, Avropa Birliyinin növbəti bəhanəsidir:** "Uzun zamandır ki, Avropa Birliyi Türkiyəni qəbul etməmək üçün müxtəlif şərtlər irəli sürür. Hesab edirəm ki, bu şərt də, sadəcə olaraq, növbəti bəhanədir. 53 ildir ki, Türkiyə Avropa Birliyinin "qapısının ağzındadır". Bu illər ərzində Türkiyədə xeyli liderlər hakimiyyətdə olublar. Bəs o zaman nə üçün Türkiyə Avropa Birliyinə qəbul edilmədi. Türkiyənin bu ittifaqa üzvlüyü üçün onlar hər zaman müxtəlif çoxsaylı şərtlər irəli sürüblər. 1987-ci ildə erməni mövzusunun aktiv olduğu zamanda Avropa Birliyinin Türkiyənin üzvlüyü üçün irəli sürdüyü şərtlərin sayı hətta 100 rəqəmini ötüb keçmişdi. Yəni onlar hər zaman şərt axtarıblar. Günter Ottinger söylədiyi şərt isə bugünkü anın şərtidir. Onlar da öz üzərlərində işləyirlər, şərtlərin sayını, məzmununu və hətta geosiyasi tutumunu da dəyişirlər. Əgər Türkiyənin Avropa Birliyinə daxil olmağı liderlə bağlıdırsa, orada Tansu Çillər, Məsud Yılmaz kimi liberal, Avropa dəyərlərinə yiyələnmiş şəxslər hakimiyyətdə olublar. Onlar Avropanın gözlədiyindən də artıq islahatları reallaşdırıblar. Uzun müddət Türkiyədə seçkilər Avropanın mərkəzində yerləşən dövlətlərdə olduğundan daha demokratik keçirilib. Eyni zamanda uzun zaman orada bir dəfə də olsun mətbuat azadlığı, insan hüquqları pozulmayıb. Bəs o zaman nə üçün Türkiyəni qəbul etməyiblər?"



**Politoloq Elxan Şahinoğlu isə hesab edir ki, Avropa Birliyi ilə Türkiyə hökuməti və cəmiyyəti arasında fikir ixtilafı dərindir:**

"Türkiyə iqtidarını həm daxildə, həm də xaricdə çox tənqid edirlər. Türkiyədə hərbi çevrilişə cəhd hadisəsini isə birmənalı olaraq hər kəs pislədi. Ancaq eyni qınamanı Türkiyə Avropa Birliyindən eşitmədi. Əksinə, həbs olunanlarla bağlı *(FETÖ-yə bağlı simlər)* narahatlıqlarını bildirdilər. Məsələn, Almaniya Fətullah Gülənə qarşı məktəblərin bağlanmasına mənfi yanaşır ki, bunun özü də Türkiyədə mənfi qarşılanır. Bu baxımdan, Avropa Birliyi ilə Türkiyə hökuməti və cəmiyyəti arasında fikir ixtilafının dərin olduğunu söyləmək olar. Ona görə də yaxınlaşma baş vermir. Avropada Ərdoğanı avtoritar rejim kimi də qələmə verirlər. Bu da realdır ki, Türkiyə cəmiyyətinin seçimi budur. Onlar demokratik seçkilər nəticəsində məhz bu partiyaya səs veriblər. Eyni zamanda müxalifət də parlamentdə önəmli səsə malikdir. Bu isə göstərir ki, Türkiyə faktiki olaraq demokratik ölkədir. Ona görə də söyləyə bilərik ki, Avropa Birliyi üçün əsas olan Ərdoğan deyil. Ərdoğanın yerinə başqa bir şəxs olsa da, onlar yenə də irəli sürməyə şərt tapacaqlar. Açıq şəkildə deyirlər ki, Türkiyənin Avropa Birliyinə üzvlüyü mümkün deyil. Ərdoğanla bağlı fikri Avropa Birliyinin komissarı deyib. Ancaq bəzən ondan da yüksək rütbəli şəxslər deyirlər ki, ümumiyyətlə, yaxın 100 ildə Türkiyə Avropa Birliyinə üzv ola bilməyəcək".

**Politoloq bildirib ki, son illər Avropa Birliyinin şərtlərini ən çox yerinə yetirən Ərdoğan oldu:** "Ancaq hər şərti yerinə yetirdikcə, Avropa Birliyi tərəfindən yeni bir şərt irəli sürülürdü. Nəticədə Ərdoğan da anladı ki, onunla oyun oynayırlar. Türkiyəni qəbul etməmək üçün müxtəlif bəhanələr irəli sürürlər. Bir misal deyim ki, Əhməd Davudoğlu baş nazir olduğu zaman o da Avropa Birliyi ilə danışıqları intensivləşdirdi. Lakin Avropa Birliyindən Davudoğluna bildirildi ki, siz Avropaya miqrant axınını dayandırın, biz də Türkiyə vətəndaşları üçün gediş-gəliş məsələsini həll edək. Türkiyə hökuməti götürdüyü öhdəlikləri yerinə yetirsə də qarşılığında yeni şərtlər irəli sürüldü. Başqa bir bəhanə də gətirirlər ki, guya Türkiyə iqtisadiyyatı zəifdir. Bu lap gülməlidir. Çünki Tükiyənin iqtisadiyyatı Avropa Birliyi ölkələrinin yarısından çoxunun iqtisadiyyatından güclüdür. Ukrayna da Avropa Birliyi yolunda ərazisinin böyük bir hissəsindən vaz keçdi. Ancaq indi deyirlər ki, Ukrayna da Türkiyə kimi Avropa Birliyinə üzv ola bilməz. Belə nəticəyə gəlmək olur ki, bu qurum üzv etmək istədikləri ölkələrə qarşı heç bir şərt irəli sürmür. Hansını ki, üzv etmək istəmirlər, onlara bir-bir şərtlər düzürlər. Türkiyəyə qarşı da yanaşma bu cürdür".

❑ Əli RAİS

# "Türk axını" danışıqları başladı-sevinəkmi?

## Politoloq: "Qərbin bu layihəyə qarşı çıxması Azərbaycanın mənafeyinə uyğundur"

**Rusiyanın enerji nəhəngi "Qazprom" "Türk axını" qaz boru kəməri (Turkish Stream) layihəsinin bərpası ilə əlaqədar avqustun 31-də Türkiyədə danışıqlara başlayıb. Bu barədə "Qazprom"un İdarə Heyətinin sədr müavini Aleksandr Medvedyev məlumat verib. Avqustun 31-də "Qazprom"un İdarə Heyətinin sədri Aleksey Miller Türkiyəyə səfər edib. Səfər çərçivəsində o, Türkiyənin enerji sahəsinin rəsmiləri ilə bir sıra görüşlər keçirib.**

Qeyd edək ki, bir müddət əvvəl Rusiyanın energetika naziri Aleksandr Novak "Türk axını" layihəsi üzrə hökumətlərarası sazişin oktyabrda imzalana biləcəyini bildirmişdi. A. Novak həmçinin Rusiya və Türkiyə prezidentlərinin Sankt-Peterburq görüşünü şərh edərkən "Türk axını" üzrə ilk boru kəmərinin tikintisinə 2019-cu ilin ikinci yarısında başlanılacağını demişdi.

Xatırladaq ki, ötən ilin noyabrında Rusiyaya məxsus "Su-24" tipli döyüş təyyarəsinin Türkiyə tərəfindən vurulmasından sonra "Qazprom" "Türk axını" layihəsi üçün Türkiyə ilə danışıqları dayandırmışdı. "Türk axını" layihəsi Rusiya qazının Türkiyədən keçməklə Avropaya çatdırılmasını nəzərdə tutur. Kəmərlə 16 milyard kubmetr qazın Avropanın, qalan hissəsinin isə Türkiyənin daxili tələbatının ödənilməsi üçün istifadə edilməsi planlaşdırılır. Layihə üzrə iki boru kəmərinin tikilməsi nəzərdə tutulur. Onu da qeyd edək ki, ilk olaraq bu layihənin təklifi 1 dekabr 2014-cü ildə Rusiya prezidenti Vladimir Putin tərəfindən edilib.




Bəs layihənin icra olunmasının Azərbaycana hansı təsirləri olacaq?

**Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan politoloq Şahin Cəfərli bildirib ki, "Türk axını" layihəsi "Cənub axını"nın baş tutmamasından sonra Rusiya tərəfindən ortaya atılan və Avropaya təbii qaz nəqlini nəzərdə tutan layihədir:** "Əvvəlcə bu layihə çərçivəsində 4 qoldan ibarət boru kəmərləri sisteminin yaradılması nəzərdə tutulmuşdu. Yəni boru Qara dəniz vasitəsilə Türkiyəyə gələcək, oradan Yunanıstan sərhədinə qədər uzadılacaq, Yunanıstandan isə digər Avropa ölkələrinə əlavə xətlər çəkiləcəkdi. Lakin Avropa Birliyi, eləcə də ABŞ bu layihəyə isti yanaşmadılar və hazırda onların bu mövqeyində bir dəyişiklik yoxdur. Çünki Avropa Birliyi Rusiyadan enerji asılılığını azaltmaq siyasəti yeridir və "Qazprom"un Avropa bazarında inhisarçı mövqelərini aradan qaldırmaqla məşğuldur. Eyni zamanda Qərb Rusiya qazının Avropaya nəqlində əsas tranzit ölkə kimi Ukraynanın rolunun məhdudlaşdırılmasında qətiyyən maraqlı deyil. "Türk axını" isə məhz bu məqsədlərə yönəlib. Yəni Rusiya bu layihə vasitəsilə Avropanı asılılıqda saxlamağa davam etmək və tranzit marşrutundan Ukraynanı çıxararaq həm onun Avropa üçün strateji önəmini azaltmaq, həm də bu ölkənin iqtisadiyyatına zərbə vurmaq niyyətindədir. Bu səbəblə, AB-nin və ABŞ-ın "Türk axını"na dəstək verməsi ehtimalı çox zəifdir, hətta yoxdur deyə bilərik. Ona görə də hazırda layihə çərçivəsində yalnız Türkiyənin ehtiyacları üçün nəzərdə tutulan bir qolun çəkilməsi gündəmdədir".

**Ş. Cəfərli həmçinin qeyd edib ki, "Türk axını" Azərbaycanın da maraqlarına uyğun deyil:** "Bu məsələdə Azərbaycanın və Qərbin maraqları üst-üstə düşür. Məlumdur ki, Azərbaycan TANAP və onun Avropa qolu olacaq TAP vasitəsilə öz qazını Avropa bazarına çıxarmağa hazırlaşır. Əgər paralel şəkildə "Türk axını" da Avropaya uzanarsa, bu amil TANAP-TAP xəttinin önəmini azaltmış olar. Bu səbəblə, Qərbin "Türk axını"na qarşı çıxması bizim mənafeyimizə uyğundur. Nə qədər qəribə səslənsə də, mən "Türk axını"nın Türkiyə dövlətinin də maraqlarına uyğun olmadığını düşünürəm. Türkiyənin onsuz da enerji sahəsində Rusiyadan kifayət qədər asılılığı var. Qardaş ölkə hazırda iki xətt üzrə - Ukraynadan keçən Avropa boru kəməri və Qara dəniz vasitəsilə gələn "Mavi axın"la Rusiyadan təbii qaz alır. Türkiyə bu gün idxal etdiyi təbii qazın təxminən 57-58%-ni Rusiyadan alır ki, bu, çox ciddi və strateji baxımdan yolverilməz asılılıqdır. İndi bu asılılığı daha da artırmağın mənası nədir? Rusiya ilə münasibətlərin pisləşdiyi dövrdə Türkiyə rəhbərliyi mənbələrin şaxələndirilməsinin önəmini anlayaraq əlavə mənbələr axtarışına başlamışdı. Ümid edirəm ki, Rusiya ilə münasibətlərin bərpasından sonra da həmin siyasət davam etdiriləcək. Çünki Rusiya kimi aqressiv və bir çox regional problemlə bağlı maraqları ilə üst-üstə düşməyən bir dövlətdən enerji asılılığı yolverilməzdir. Bu amil Türkiyənin regional siyasətini bəzi istiqamətlərdə əngəlləyən faktordur və mümkün qədər qısa zamanda aradan qaldırılmalıdır. "Türk axını"nın bərpası barədə Türkiyə rəhbərliyinin qərarı situativ xarakterlidir və münasibətləri istiləşdirmək üçün Rusiyaya siyasi jestdən başqa bir şey deyil".

❑ Əli RAİS

YENİ MÜSAVAT
N 193 (6514) 1 sentyabr 2016





# Oqtay Zülfüqarovu da itirdik

## 87 yaşında vəfat edən xalq artisti Fəxri Xiyabanda dəfn edildi

**Azərbaycanın məşhur uşaq bəstəkarı, Azərbaycan SSR-nin əməkdar incəsənət xadimi, Azərbaycan Respublikasının xalq artisti Oqtay Zülfüqarov 87 yaşında vəfat edib. Oqtay Qədir oğlu Zülfüqarov 1929-cu ildə anadan olub. 1945-ci ildə 1 saylı Musiqi Məktəbinin violoncel sinfinə qəbul olunan Oqtay yeddi illik musiqi məktəbini iki ilə başa vurub, A.Zeynallı adına Musiqi Məktəbində təhsilini davam etdirib.**

Bir müddət Dövlət Konservatoriyasının violoncel sinfində oxuyub, sonra imtahansız professor Qara Qarayevin bəstəkarlıq sinfinə qəbul olunub.

1958-ci ildə Qara Qarayevin sinfini uğurla başa vuran Oqtay Zülfüqarov müəlliminin məsləhəti ilə uşaqlar üçün silsilə mahnılar yaratmağa başlayıb. Eyni zamanda o, ''Qız-ulduz'', ''Pişik və Sərçə'' və ''Meşə nağılı'' operalarını da yazıb. ''Şəngülüm, Şüngülüm və Məngülüm'' adlı musiqili komediya, violoncel və fleyta üçün konsertlər, simfonik poemalar, kantatalar, dörd simfoniya, instrumental pyeslər, teatr və kino üçün musiqi yazan bəstəkarın böyük simfonik orkestr üçün yaratdığı ''Şənlən mənim xalqım'' uvertürası 1962-ci ildə Moskvada laureat adına layiq görülüb.



2010-2012 illərdə O.Zülfüqarov ''Məlik Məmməd'' nağılı əsasında uşaqlar üçün ''Sehrli alma'' iki hissəli balet, ''Tumurcuq'' və ''Aysel'' Mahnı Uşaq Teatrının bədii rəhbəri Tamilla Babayeva və Vidadi Xəlilovla birgə II və V siniflər üçün musiqi dərslikləri yazıb.

Uzun illər ''Tumurcuq'' və ''Aysel'' Uşaq Mahnı Teatrı Oqtay Zülfüqarovun rəhbərliyi altında Azərbaycan Dövlət Televiziyasında verilişlər hazırlayıb.

1972-ci ildə Azərbaycan incəsənət xadimi, 2000-ci ildə xalq artisti adına layiq görülüb, 2009-cu ildə ''Şöhrət'' ordeni' ilə təltif edilib. Prezident təqaüdçüsü, bəstəkar Oqtay Zülfüqarov uzun illər Dövlət Uşaq Filarmoniyasının bədii rəhbəri olub.

Avqustun 31-də "Təzəpir" məscidində Oqtay Zülfüqarovla vida mərasimi keçirilib.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev və nazir müavini Ədalət Vəliyev də mərasimdə iştirak edib. Bəstəkarla vida mərasiminə Azərbaycan prezidenti adından da əklil göndərilib.

O.Zülfüqarov İkinci Fəxri Xiyabanda dəfn olunub.

Qeyd edək ki, xalq artistinin hər iki böyrəyinin fəaliyyəti dayanmışdı. O uzun müddətdir ki, müalicə alırdı.

❑ **Könül İBRAHİMOVA**

# Tarixçi alim Fazil Mustafanı ittiham etdi

## Dilavər Əzimli: "Sənin məqsədinin nə olduğunu mən bilirəm"

**Deputat Fazil Mustafanın Səfəvilər dövləti və bu dövlətin qurucusu Şah İsmayıl Xətai haqqında dedikləri birmənalı qarşılanmayıb və yenidən mətbuatda geniş müzakirələrə səbəb olub. Fazil Mustafa "Yeni Müsavat"a açıqlamasında da mübahisə doğuracaq fikirlər səsləndirib. Deputat qeyd edib ki, Səfəvi milli dövlət deyil və onu nümunə götürmək mənasızdır: "Azərbaycanda yanlış təfəkkür var ki, guya bu dəyərlər bizə imperiya yaradıb, böyük dövlət qurub.**



Dilavər Əzimli

Bunlar hamısı boş, əsassız fikirlərdir. Xətainin qoyub getdiyi dəyər, tutduğu ərazilər İranın işinə yarayan bir bazardır. Səfəvi ideologiyası həm İslamın parçalanmasına, həm də Azərbaycanda irançı düşüncələrin formalaşmasına səbəb olub. Xətainin düşüncəsi ilə hərəkət etsək, Türkiyə başda olmaqla, çevrəmizdəki türk arealı ilə düşmən olmalıyıq. Səfəvi milli dövlət deyil. Bu baxımdan, bunu ideallaşdırmağın mənası yoxdur"

Məclis üzvünün açıqlamalarına **tarixçi alim Dilavər Əzimli** münasibət bildirib və kəskin tənqid edib: "Şah İsmayıl və Sultan Səlim məsələsini gündəmə gətirənlər türk dünyasının əleyhinə işləyənlərdir. Əslində onların əsas məqsədi sünni-şiə məsələsini gündəmə gətirmək, qabartmaqdır, iki dövlət arasındakı münasibətləri pozmaq, gərgin vəziyyətdə saxlamaq, ictimai rəyi bu münasibətlər üzərində qurmağa xidmət edir. Bu adamlara bir daha bəyan edirəm ki, dünya tarixşünaslığı birmənalı şəkildə Səfəvi dövlətinin türk dövləti olduğunu ortaya qoyub. Dünya tarixşünaslığı onu yaradanların türk sərkərdələri, bu dövlətin isə türk dövləti olduğunu təsdiq edir. Dövlətin başında duranlar isə sülalələrdir. Əfşar sülaləsi, Səfəvilər sülaləsi və sair. Bu gün Kembric, Harvard, Oksford və digər beynəlxalq dərəcəli ali məktəblərin orta əsrlər üzrə tədqiqatçıları belə deyirsə, Fazil Mustafanın sərsəmləmələrinə mən heç nə demək istəmirəm. Onun kimilərə bir cavabım var: sizin ali məqsədiniz bu məsələni şişirtməklə iki dövlət arasındakı münasibətləri pozmaqdır".

**Tarixçi alim İran dövlətinin belə farslara aid olmadığını iddia edərək, F. Mustafanın fikirlərini əsassız adlandırıb:** "Osmanlı bir dövlət idi, Səfəvi də ayrı bir dövlət idi. Hər ikisinin öz ərazisi var idi, hər ikisinin dövlətçiliyi möhkəm idi. Səfəviləri nə əsasla İran dövləti adlandırırsınız? İran məgər fars dövləti olub? İran adlanan kəlmənin heç farsa aidiyyəti yoxdur. O sonradan ortaya çıxmış bir dövlət adıdır. Əvvəllər ərazi adı ilə adlandırırdılar. Fars hara, İran hara? O yerin adını Persiya kimi yazırdılar. İngilislər oraya "Persiya" yazmaqla bütün bu ərazilərin farslara məxsus olduğunu bildirmək istəyirdilər. İndi ingilis tarixşünaslığı özü geri çəkilib. İndi deyirlər ki, bu dövlətlər türk dövlətləri olub. Əgər sizin əsaslı bir iddialarınız yoxdursa, niyə Osmanlı-Səfəvi münasibətlərindən yapışırsınız? Bir az irəli gedin, Əmir Teymurla İldırım Bəyazidin münasibətlərindən danışın, Ağqoyunlu hökmdarları ilə Osmanlı sultanlarının münasibətlərindən danışın".

**Dilavər Əzimlinin sözlərinə görə, Səfəvilər həmin dövrdə Osmanlının qarşısında dura bilən, Sultan Süleymana düz çökməyən yeganə dövlət olub:** "Səfəvilər qüdrətli bir dövlət idi, o qədər qüdrətli idi ki, dünyanı fəth edən Sultan Süleyman burada dəfələrlə məğlub oldu. Bu, elə-belə nailiyyət deyildi. Səfəvilərin güclü türk ordusu var idi. Çaldıran döyüşündən sonra bu ərazilərdə nələr baş verdi? Şah Abbas həmin əraziləri geri qaytardı. Ondan sonra hakimiyyətə gələn Nadir Şah Əfşar də həmin dövlətə rəhbərlik edirdi, dövlət eyni idi, sadəcə, sülalə dəyişdi. Nə üçün Nadir Şah Əfşardan danışmırsan? Niyə deмirsən ki, o, dünyanı fəth elədi, ancaq Osmanlı ilə münasibətləri qorudu. Hətta təklif edirdi ki, eyni təriqəti, cəfəri təriqətini qəbul edək. Mən yüzlərlə tarixçi sadalayaram ki, Səfəvilər dövlətinin türk dövləti olduğunu yazırlar. Siz niyə bunun əksini deyirsiniz, bu qədər bəsitlik olarmı?

Bunu deyənlər hansı ideyaya xidmət edir, o bizə bəllidir. Gördünüz ki, Türkiyədə hansı hadisələr baş verdi. Gülənçilər Türkiyə hökumətini dağıtmağa qalxdılar. Deməli, türkçülüyün qarşısına sədd çəkməyə çalışırlar".

❑ **Nərgiz LİFTİYEVA**

# Kütləvi hönkürüşmə nə vaxt olacaq?



**Samir SARI**

**Deyilənə görə, Stalin öləndə sovet rəhbərləri karıxıb qalıblar, bilməyiblər bu acı xəbəri xalqa necə çatdırsınlar, qorxublar ki, xalq dərdə tablaşa bilməz, qəşş eləyib özündən gedər.**

Bir də yazılanlara görə, sovet rəhbərləri ən çox ona görə narahat olublar ki, ulu rəhbərdən sonra hakimiyyət başına kimin oturmalı olduğu üstündə intriqa, dava başlayar və böyük sovet dövləti çökər, partiyanın hakimiyyəti sarsılar.

Amma bunlar olmayıb. Müdrik rəhbərlər hakimiyyət hərisi və eyni zamanda seksual manyak olan Beriyanın hakimiyyətə yolunu birtəhər kəsdikdən sonra acı həqiqəti xalqa deyiblər və böyük sovet xalqı gerçəkdən də qəşş eləyib özündən gedib. Doğma atasının dəfnində gözündən iki damcı yaş çıxmayan yekə-yekə kişilər küçələrdə hönkürüşüblər.

Düzdür, son zamanlar sovetoloqlar deyirlər ki, guya o vaxtkı rejim bu kütləvi hönkürüşməni inzibati resurslarla təşkil ediblər, yəni xalqa göstəriş verilib ki, o boyda rəhbər ölüb, kütləvi şəkildə ağlaşmalısınız. Bununla belə, bizim yaşlı kəndçilərimiz and içirlər ki, yox, onlara heç kəs "ağlayın" göstərişi verməyib və hamı səmimi şəkildə ağlayıb. Hamı hüzndən, dərddən, rəhbərə olan sonsuz sevgi üzündən ağlayırmış. Hətta hissə qapılıb üzünü cıranlar da olub (Biz tərəfdə elə bir ritual var).

Bir çoxları əmindir ki, 1950-ci illərin sovet adamları Stalindən sonra böyük sovet dövlətinin dağılacağını bildikləri üçün ağlayırmışlar.

Elədirsə, tarix o adamların göz yaşına haqq qazandırır. Gerçəkdən də Staindən sonra SSRİ dağıldı. Sadəcə, birdən-birə dağılmadı, yavaş-yavaş dağılmağa başladı və bu proses 1991-ci ildə başa çatdı.

İndi Özbəkisan xalqı çox pəjmürdə haldadır. Çünki ölkənin 78 yaşlı rəhbəri İslam Kərimovun öldüyü deyilir. Xəbər nə bir türlü təsdiqlənir, nə də təkzib olunur.

Prinsipcə, Kərimov bu tezlikdə ölə bilməz, o ranqda olan liderlər üçün 78 son hədd deyil. Məsələn, Zimbabvenin milli lideri Robert Muqabenin 92 yaşı var, hələ də siyasi perspektivlərdən danışır. Kubanın lideri Fidel Kastro 10 ABŞ prezidentinin başını yeyib, hələ də sağ-salamatdır, doxsanca yaşı var. Düzdür, ölkəni birbaşa özü idarə etmir, amma gendən nəzarət edir.

Onlara baxanda İslam Kərimov yaxşı mənada dünənin uşağıdır. Bayıssı (bacısı yazanda o effekti vermir) ölmüşün yataqlara düşən vaxtıdımı?

Amma bildiyimiz kimi, ölüm qaşla göz arasındadır, necə deyərlər, hər kəsin bir vaxtı var, dindarlar demişkən, hər kəs ölüm şərbətini bir gün əl-əlbət içəcək. Burası heç. Amma Kərimov ümumiyyətlə zərərli içkilər içməzdi, o üzdən adam mat qalır.

Bir iş də var ki, heç kəsin "öldü, ölüb" xəbəri çıxmasın, çıxdısa, geri dönüş yoxdur, 3 aya, yarım ilə getməlidir. Çünki Əzrayılın kiməsə möhlət verməyi olur, amma kimisə unutması mümkün deyil.

Bəs Kərimovdan sonra Özbəkistanda vəziyyət necə olacaq? Əlbəttə, Özbəkistan SSRİ deyil, çökməyəcək. Əkələr yığışacaq, Beriya yosunlu birinin hakimiyyətə gəlməsinin qarşısını alacaq, sonra başqa bir Kərimovu (soyadı başqa cür də ola bilər) taxta əyləşdirəcəklər. O da təxminən üç il ulu rəhbər İslam Kərimovun xatirəsini əziz tutacaq, məzarına əklil-filan qoyacaq, üç ildən sonra isə onu "xalq düşməni" çıxaracaq, deyəcək, artıq milli lider özüməm.

Hazırda özbək xalqının hüznünü anlamaq lazımdır. Necə də olmasa, son 25 ildə üzləri, gözləri Kərimova öyrəşmişdi. Adam hər kəsin ailə üzvü kimi bir şey olmuşdu, hər gün televizorda görünürdü.

Ona görə də sabah Kərimovun öldüyü təsdiqlənsə, dəfn mərasimində xalqın kütləvi şəkildə ağlayıb qəşş eləməsini görəndə heç kəs lağlağı eləməsin. Bu təbii milli kədərin də məhsulu ola bilər, yuxarıdan verilən göstərişin də.

Bildiyiniz kimi, Şimali Koreya rəhbərinin dədəsi öləndə zəif ağlayanları ciddi şəkildə cəzalandırmışdılar. Əgər iki damla süni göz yaşına qızırğalanırsansa, sonra başına gələnlər üçün sellmə göz yaşı axıtmağı gözə almalısan.

Bu işlər belədir, qardaşlar, özünüz bilirsiniz, ta nə deyim.

# İmtahan bitdi, rüşvətmi başladı?-nazirlikdən cavab

## Rayon və kəndlərdə müəllimlərdən işə düzəlmələri üçün pul tələb edilir?

**Bir müddət əvvəl müəllimlərin işə qəbulu üçün Təhsil Nazirliyi tərəfindən imtahan keçirildi. İmtahanda keçid balı rayonlar üçün 36, Bakı üçünsə 48 bal müəyyən edildi. Ancaq müvafiq balı yığan müəllimlər yaşadıqları rayon və kəndlərdə işlə təmin edilmirlər.**




Redaksiyamıza daxil olan şikayətlərə görə, məktəb direktorları vakant yerləri müəllimlərə 3-5 min manat arasında "satır". Bərdə rayonunda müəllimlərin imtahanda yüksək bal yığmalarına baxmayaraq, rayonda və kəndlərdə məktəbdə işə təyin edilmirlər. Vakant yer olduğu halda bir sıra məktəblər onlara müraciət edən müəllimlərə "yox" cavabı verir və ya işə qəbul üçün pul verməsini istəyirlər. Gədəbəy rayonu Qızıltorpaq kənd sakini Leyla Abdullayeva da 45 bal yığıb. Ancaq ona da kənd məktəbində vakant yerin olmadığı deyilib. Ancaq L. Abdullayeva həmin kənd məktəbində vakant yerin olduğunu iddia edir.

Maraqlıdır, rayon təhsil şöbəsinin və ya məktəb direktorunun bu cür öz başınalıqlarından Təhsil Nazirliyi xəbərdardırmı? Ümumiyyətlə, məktəb direktorunun vakant yeri satmaq haqqı varmı?

**Təhsil Nazirliyinin mətbuat xidmətinin rəhbəri Cəsarət Valehov bu iddiaların gerçək olmadığını dedi:** "Müəllimlərin təyin olunması üçün Təhsil Nazirliyi müvafiq olaraq imtahan aparır. Bu mərhələdə onlar test imtahanından keçir və müvafiq nəticələr toplayır. Rayonlarda keçid balı 36, paytaxtda isə 48 göstərilib. 36-dan yüksək bal toplayan müəllimlər müxtəlif regionlar üzrə 4 vakansiyanı seçə bilərlər. Bu il yenilik tətbiq olundu ki, hər bir namizəd hansı yerə düşməsini seçə bilər. Bunun da təhsil şöbələri tərəfindən gizlədilməsi, yaxud da çıxardılan vakansiyalarla bağlı onlar tərəfindən müəllimlərin təyin olunması mümkün deyil. Çünki bütün vakansiyalar Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin müvafiq veb səhifəsindədir. Biz bütün ölkə üzrə ümumtəhsil məktəblərində olan vakansiyaları görürük. O vakansiyalara rayon təhsil şöbələri və ya məktəb direktorları özbaşına təyinat həyata keçirə bilməz. Onlar ancaq bizim veb resurslarında yerləşdirilib və onu həm iddiaçılar, namizədlər görür, həm də digər şəxslər görə bilərlər. İnanmıram ki, 50 bal toplayan həmin şəxsin dediyi kimi, onun yerinə ondan daha az bal toplayan şəxs təyin olunsun. Əgər o yoxlasa görər ki, həmin yerə təyin edilən ondan daha yüksək 52-60 bal arası toylayandır. Bal limiti 60-a qədərdir. İmtahan verən hər bir şəxs öz ballarını avtomatik olaraq vakansiya yerlərinə yerləşdirir, vakansiya yerlərində də həmin ballar üzrə yer təyin edilir. Məsələn, əgər Şəkinin Kiş kəndində ədəbiyyat müəllimi üçün vakansiya yer varsa, imtahan vermiş şəxsin balı ora uyğun gəlirsə, ora keçid edə bilir. Burada insan əli ilə, yaxud da ki, subyektiv tərəflərlə nəsə etmək mümkün deyil. Çünki vakansiyalar başdan bəlli olur və iddiaçı müəllimlər də həmin vakansiyalara uyğun olaraq öz namizədliklərini verə bilirlər. Əgər bununla bağlı yenə də kiminsə şikayəti varsa, bizə müraciət edə bilər".

❑ **Günel MANAFLI**



# Ərəb turistlər Bakıya sığortasız gəlir

## Turist qəzaya düşərsə, ona kompensasiya ödənilməlidirmi?

**Avqustun 29-da ölkəmizə gələn ərəb turistlər qəzaya uğrayıb. Belə ki, Qəbələdən Bakıya gələn "Hyundai" markalı mikroavtobusun sürücüsü İsmayıllı rayonu ərazisində idarəetməni itirib və avtobus aşıb. Hadisə nəticəsində avtobusda olan 18 nəfər ərəb turistdən 16-sı müxtəlif dərəcəli bədən xəsarət alıb.**

Ümumiyyətlə, bu il ölkəmizə gələn turistlərin arasında ərəb turistlərin sayı çoxluq təşkil edir. Hara getsək onlarla rastlaşırıq. Onlar sərbəst avtobuslara minir, istədikləri rayona gedib gəzirlər. Maraqlıdır, ölkəmizdə ərəb turist qəzaya düşərsə, ona hansısa kompensasiya ödənilirmi? Həmçinin onların gəzintisinin təşkili üçün xüsusi avtobuslar, nəzarət olmalı deyilmi?

**Turizm üzrə ekspert Çingiz İsmayılov** qəza keçirən ərəblərə kompensasiya ödənilməsinin onların hansı şərtlərlə gəlməsindən asılı olduğunu dedi: "Turistin turpaket alıb gəlməsi mütləq deyil. Turist elə öz başına da gələ bilər. Xarici ölkələrdə turist avtostop adlanan üsulla da gəzməyə gedirlər. Təbii ki, turist paketləri alınanda orada şərtlər var. Sığortalanmaq istəyib istəmədikləri soruşulur. Təbii ki, sığortalananda turpaketin qiymətinə də təsir edir. Əgər turist gəlirsə, ona mütləq şəkildə nəzarət etmək, müşahidə etmək lazımdır deyə bir şərt yoxdur. Bütün bunlar turistin hansı şərtlərlə gəlməsindən asılıdır. Konkret qəzaya uğrayan ərəblərin hansı şərtlərlə gəlməsindən asılı olaraq ona uyğun addım atmaq lazımdır. Əgər onlar özbaşına gəlibsə, təbii ki, heç bir turizm şirkəti məsuliyyət daşımır. Əgər onlar turpaketlə gəlibsə, təbii ki, orada müqavilədə tibbi sığortalanma və yaxud hansısa fövqəladə hadisə ilə bağlı sığortalanma varsa, o zaman kompensasiya ödənilməlidir".

Digər turizm eksperti Elxan Vəliyev gələn turistlərin düzgün istiqamətləndirilmədiyini dedi: "Ərəb turistlərinin ölkəmizə gəlməsində əsas motivasiyaedici amil viza dəstəyinin olması oldu. Gələn turistlər təəssüf ki, düzgün istiqamətləndirilmirlər. Bizim hotellərin 90-95 faizinin heç bir özəl və ya dövlətə bağlı olan turizm şirkəti ilə əlaqəsi yoxdur. Dünyanın istənilən ölkəsi ilə müqayisə etsək görərik ki, bizim turistlər digər ölkələrə getdiyi zaman onlara vaxt təyin olunur. Özəl və ya dövlət turizm şirkətlərindən asılı olmayaraq o ölkələrə gedən hər bir turistə turlar təqdim olunur. O turların bizdə olmaması təbii ki, bu cür hadisələrin artmasına səbəb olacaq. Hətta elə şirkətlər var ki, onların turizm şirkəti olaraq siyahıda adları yoxdur. Amma onlar xaricdən nə qədər qonaqlar gətirirlər. Burada başqa bir sual doğru ki, onların gələn gəlirlərdən vergiyə hansısa köçürmələri olurmu? Bu sahədə böyük boşluqlar var. Ona görə də gələcəkdə bu sahə ciddi nəzarət altında olmalıdır. Bu hadisələrə əsas səbəb hotellərlə şirkətlər arasında əlaqənin olmaması, turistlərin nəzarətsiz qalmalarıdır. Turist bir var ki, kiminsə nəzarəti altında gəlsin, bir də var ki, özü gəlsin. Gərək özü gələn turist hotelə yalvarsın ki, mənə xidmət göstər. Belə olan təqdirdə hotel ona qiyməti baha satacaq ki, bu da gələcəkdə gələn qonaqların sayına təsir edə bilər".

❑ **Günel MANAFLI**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

DİQQƏT DİQQƏT

Müəllimlərin nəzərinə!

"EDUCENTER" kurslarında imtahanlar başlandı!

Özünüzə və savadınıza güvənirsinizsə,

Sizi gözləyirik!

Əlaqə nömrələri: (+994 55) 729 96 86

(+994 50) 703 96 86

Ünvan: Adil Babayev 89-93 (Ərəblinka qəs.)

**Elan**

**Qəbələdə bağ sahibi olmaq istəyənlərin nəzərinə!**

**Qəbələnin gözəl ərazisi olan Vəndam kəndində yola yaxın, dağın ətəyində, meyvə ağacları ilə dolu 54 sot torpaq sahəsi satılır. Hissə-hissə də (6 sot) almaq mümkündür.**

**Əlaqə telefonu: (050) 371-01-60, (070) 335-90-15**

**"Sovetski"də aparılan söküntü işləri uzun müddətdir ki, mətbuatda müzakirə mövzusudur. Bu mövzuda cəmiyyətdə yaranan suallara aydınlıq gətirmək üçün "Yeni Müsavat"ın müxbiri Yasamal Rayon İcra Hakimiyyəti başçısının müavini, Yasamal Rayon Söküntü Komissiyasının sədri Səməd İslamovdan müsahibə alıb.**

# "Sovetski"ni sökən məmur danışdı: "Başçıya zəng edib dedim ki, aksiyaya 5 min nəfər yığışıb, neynəyək..."

## Yasamal RİH başçısının 1-ci müavini Səməd İslamov: "Yaxın vaxtlarda Çingiz Mustafayev küçəsindən "Təzəpir" məscidinə tərəf söküntü işlərinə başlanacaq"

***- Səməd müəllim, "Sovetski"də aparılan söküntü işləri zamanı xeyli narazılıqlar oldu. Biz o ərazidən köçürülən sakinlərin mövqeyini dəfələrlə işıqlandırmışıq. Bəs sizin mövqeyiniz necədir? Bu narazılığın səbəbi nədir?***

- Yasamal rayonunda "Sovetski" adlanan ərazi ilə bağlı məsələ 2 il 6 aydır ki, müzakirə olunur. 50-60-cı illərdə "Sovetski"də aparılan çəkilişlərə baxarkən xoş nostalji hisslər keçiririk. Lakin nə qədər keçmişi qoruyub saxlamaq istəsək də, illər keçdikcə bu, mümkünsüz olur. 2000-ci ilin statistikasında göstərilir ki, Yasamal rayonundakı fərdi yaşayış evlərinin 70 faizinin yaşı 100 ildən artıqdır, onlar yaşayış üçün yararsız vəziyyətə düşüb. Bu evlərin də əksəriyyəti məhz "Sovetski"də yerləşir. Kortəbii üsulla, keyfiyyətsiz tikinti materialları ilə tikilmiş, kommunal şəraiti məhdud olan bu evlər bizim üçün də problemə çevrilmişdi. Əksər evlərin yağışdan sonra tavanları çökür, qəzalı vəziyyətə düşürdü. Xüsusilə payız-qış ayları, yanğınsöndürən və su maşınları daim "Sovetski"də olurdular. Son illər problemlər artıq pik həddə çatmışdı. "Sovetski" camaatı tərəfindən ölkə rəhbərliyinə, yuxarı orqanlara da məktublarla çoxsaylı müraciətlər edildi. Nəticədə 2013-cü ildə Yasamal Rayon İcra Hakimiyyətinə "Sovetski" və onun ətraf ərazilərinin köçürülməsi ilə bağlı qısa müddətdə təkliflər planı hazırlanması tapşırığı verildi. Bununla bağlı Bakı Şəhər İcra Hakimiyyətinin 12 dekabr 2013-cü il tarixli 501 saylı sərəncamı var.

***- Bəs kompensasiya məsələsi nə üçün problemə çevrildi? Bildiyiniz kimi, "Sovetski"də sakinlərin əksəriyyəti kompensasiyaya etiraz etdi...***

- "Sovetski"də mənzillərin köçürülməsi ilə bağlı məlumatlar yayıldıqdan sonra bu, çox ciddi müzakirə mövzusuna çevrildi. Hiss edirdik ki, əhali arasında müəyyən inamsızlıq var. Bunun nəticəsidir ki, 2014-cü il fevralın 16-da "Sovetski" sakinləri etiraz aksiyası keçirdi. Həmin gün ərazidə idim. Oraya yaxınlaşanda narahatlıq keçirdim. İcra başçısı İbrahim Mehdiyevə zəng eləyib bildirdim ki, 5 minə yaxın insan toplaşıb, böyük həyəcan var. Onu da bildirdim ki, aksiyaya gələnlər əllərində ulu öndərin və cənab prezidentin portretlərini tutublar. Başçı mənə bildirdi ki, narahat olma, onlar inamla oraya toplaşıblar, çəkinmə, çıx qarşılarına, suallarını cavablandır. Cənab prezidentin bizim qarşımıza qoyduğu tapşırıqları onlara izah et. Əhaliyə bəyan edildi ki, bütün ölçü və qiymətləndirmə işləri şəffaf şəkildə aparılacaq. Söküntü işlərinə isə yalnız mənzil sahibləri ilə razılaşdırıldıqdan sonra başlanılacaq. Ölkə başçısının bizim qarşımıza qoyduğu tapşırıq bundan ibarət idi. Onların suallarını cavablandırdıqdan sonra hamı dağılışdı".



**"Ərazi bizim üçün problemə çevrilmişdi, xüsusilə payız-qış ayları yanğınsöndürən və su maşınları daim "Sovetski"də olurdu"**



**"Ölçü və qiymətləndirmə işləri şəffaf aparılsın, söküntü işlərinə mənzil sahibləri ilə razılaşdırıldıqdan sonra başlansın - ölkə başçısının bizə əsas tapşırığı bu idi"**



**"Monitorinqlər apardıq və faktlara əsasən gördük ki, "Sovetski" ərazisində mənzillər satılarkən hər kvadratının qiyməti 800-1000 manatdan artıq olmayıb"**



**"Nərimanov rayonunda iki çoxmərtəbəli bina əsaslı şəkildə təmir olundu və mənzili azkvadratlı olan, kompensasiya ilə razılaşmayan 219 ailəni oraya köçürdük"**



***- Mənzillərin qiymətləndirilməsi, kompensasiyaların verilməsi prosesi necə aparıldı?***

- Söküntü aparmazdan əvvəl ilk növbədə daşınmaz əmlakların satın alınması ilə bağlı monitorinqlər apardıq. Mənzillərin kvadratmetri üçün verilən 1500 manat təsadüfi rəqəm deyil. 2013-cü ilin sonlarında həmin ərazilərdə 6 ayın monitorinqini apardıq. Faktlara əsasən gördük ki, "Sovetski" ərazisində mənzillər satılarkən kvadratının qiyməti 800-1000 manatdan artıq olmayıb. Bütün bunları nəzərə alaraq, son hədd kimi mənzillərin hər kvadratmetrinə 1500 manatdan kompensasiya verilməsi qərara alındı. Güzəşt olaraq, sənədi olmayan şəxslər belə qeydiyyata alındı, onlara da kompensasiya ödənildi. Bu proseslər qısa zamanda sürətlə aparıldı. Elə ay olurdu ki, 300 mənzil sahibi ilə alqı-satqı işi aparırdıq.

***- Səməd müəllim, əsasən mənzillərinin kvadratmetri az olan ailələr narazı qaldılar. Onların arqumenti bu idi ki, verilən kompensasiya ilə başqa yerdə mənzil ala bilməyəcəkdilər. Onları necə razı saldınız?***

- "Sovetski"də elə mənzillər var idi ki, ölçüsü çox az idi. 10-15 kvadratmetr. Belə mənzillərdə yaşayanlara fərqli yanaşırdıq. Başa düşürdük ki, azkvadratlı ailələrə veriləcək kompensasiya onları qane etmir. Bunları nəzərə aldıq və bu barədə ölkə rəhbərliyinə bildirdik. Bu zaman Nərimanov rayonunda iki çoxmərtəbəli bina əsaslı şəkildə təmir olundu və 219 ailəni oraya köçürdük".

***- "Sovetski"də başqa hansı ərazilərin sökülməsi nəzərdə tutulur?***

- Ölkə başçısının göstərişi ilə Çingiz Mustafayev küçəsi və "Təzəpir" məscidi istiqamətində işlər aparılacaq. Artıq ölçü və qiymətləndirmə işləri aparılır. Yəqin ki, orada da belə problemlər çıxacaq və bu məsələ həmin qaydada öz həllini tapacaq. Bu günə kimi 3830 mənzil satın alınıb. 3750-yə yaxını sökülüb, qalıqları ərazidən çıxarılıb. Ümumilikdə, 210 min kvadratmetr ərazi, yaşayış və qeyri-yaşayış sahəsi boşaldılıb. Avqustun 8-də ölkə başçısı "Sovetski"də oldu və yol-nəqliyyat infrastrukturunun təməlini qoydu. Bu işlərə "Azəryolservis" ASC tərəfindən başlanıb və ümumilikdə 26 hektar ərazidə abadlıq işləri aparılıb".

***- Söküntü aparılan ərazilərdə çoxmərtəbəli binaların tikiləcəyi deyilirdi. Bu, doğrudurmu?***

- Söküntü aparılan andan deyirdilər ki, həmin ərazidə yaşayış binaları tikiləcək. O vaxt da deyirdik ki, bu, belə olmayacaq. Məqsəd orada ərazini boşaldıb, yerində tikinti aparmaq deyil. Layihədə sırf insanların mənzil şəraitini yaxşılaşdırılması və Bakı şəhərinin abadlaşdırılması nəzərdə tutulurdu. Bütün bunlar da öz təsdiqini tapdı. 23 hektar ərazidə yaşıllıq olacaq, 3 hektarı isə yollardan ibarətdir. Heç bir tikintidən söhbət gedə bilməz. Təbii ki, yaşıllığa uyğun olaraq sosial obyektlər də olacaq. Bu da mütləq olmalıdır. 6,1 kilometr ərazidə, yəni 5 küçədə bu işlər aparılacaq. Nərimanov prospektində, Balababa Məcidov, Çingiz Mustafayev, Nizami küçələrində, "Qış bulvarı"nın davamı olaraq, Akademik Milli Dram Teatrının arxasından "Sovetski"yə qədər yaşıllıqlar salınacaq. Bu yaxınlarda ölkə rəhbərliyi tərəfindən yeni tapşırıq almışıq. Çingiz Mustafayevdən Süleyman Tağızadə küçəsinə qədər, "Təzəpir" istiqamətində işlər aparılır. 3000-ə yaxın yaşayış və qeyri-yaşayış sahəsində ölçü işləri aparılacaq. Həmin ərazilər isə 22 hektara yaxın ərazini əhatə edir. Bu işlərə artıq başlanılıb. Müstəqil ekspertlər və sakinlərin iştirakı ilə ölçü işləri aparılır. Tam başa çatdıqdan sonra maliyyə işlərinə başlanacaq.

***- Bəzi sakinlər narazılıq edir ki, razılaşma olmadan onların adına bank hesabı açıb, pulu oraya köçürür, sonra mənzili sökürsünüz. Bu, hansı qanuna əsasən aparılır?***

- Söküntüdən əvvəl mənzillərdə ölçü işləri apardıq, sakinlərlə danışıqlar oldu. Razılaşanlar da oldu, narazılıq edənlər də. Yadınıza gəlirsə, Nazirlər Kabinetinin 358 saylı bir qərarı oldu. Bu qərarın verilməsinə bir zərurət yaranmışdı. Tərəfimizdən 2320 mənzil satın alınmışdı, yerdə qalan təqribən 1093 mənzil bizim üçün problemə çevrilmişdi. Halbuki həmin ərazidə yeni yolun və mühəndis kommunikasiya xətlərinin dövlət əhəmiyyətli yolların çəkilməsi nəzərdə tutulmuşdu. 1093 mənzil sahibi əsasən bayaq vurğuladığım kimi, hüquqi cəhətdən mənzillərinin köçürülməsi mümkün olmayan, problemli mənzillər idi. Orada faktiki yaşayanlarla mülkiyyətçilər arasında mübahisə yaranmışdı. Mülkiyyətçi vərəsədir, uzun illər orada yaşamır, ancaq faktiki yaşayan insanlar qeyri-rəsmi olaraq evlərini satıblar. 25-30 ildir ki, orada başqa insanlar yaşayır. Bir sözlə, bu ailələr köçmək istəmirdilər. Bununla bağlı Nazirlər Kabinetinin qərarı oldu. Bu vətəndaşları biz komissiyaya dəvət etdik. Ancaq bəziləri razılaşmadılar. Bu zaman hüququ baxımdan öz tədbirlərimizi gördük. Biz də onları məhkəməyə verdik və tam qanuni şəkildə işləri apardıq. Onların depozit hesablarına vəsaitləri köçürdük. Şükür ki, o insanlar da sonradan bizi anladılar. Hazırda isə köçürülməmiş ailə qalmayıb. Təbii ki, qonşu mənzillər sökülərkən digərlərinin də kommunal problemi olurdu. Su, elektrik xətlərində tez-tez problemlər yaranırdı. Biz söküntünü maksimum ehtiyatla aparırdıq, lakin bildiyiniz kimi, orada evlər bitişik olduğundan kommunal xətlər də yaxın idi.

***- "Sovetski"də bəzi arxitektur binalar söküldü. Hazırda neçə arxitektur bina var və onların hansı formada saxlanması nəzərdə tutulur?***

- Bakı şəhərinin baş planına əsasən "Sovetski"də 95 mədəniyyət abidəsi və tarixi abidə var. O zaman Mədəniyyət Nazirliyi və müstəqil ekspertlərlə birlikdə həmin binalara baxış keçirdik. Belə qənaətə gəldik ki, onlardan 23-ü heç bir tarixi və yaxud mədəni əhəmiyyət daşımır. Onların şəkilləri və videoları çəkərək siyahısını Nazirlər Kabinetinə göndərdik. Həmin 23 bina siyahıdan çıxarıldı, ancaq buna baxmayaraq 2-si bizim tərəfimizdən saxlanıldı. Onlardan biri Mustafa Sübhi küçəsində məscid binasıdır, biri ötürücü qüllədir. Qalan 72 bina olduğu kimi qalmaqdadır. Avqust ayında ölkə başçısı "Sovetski"yə baxış keçirən zaman xüsusilə memarlıq və tarixi binaların qorunmasına tapşırıq verdi. Mədəniyyət Nazirliyi və Elmlər Akademiyası tərəfindən həmin binalara baxış keçirilməlidir, restavrasiya işləri aparılmalıdır. Həmin binaların muzey kimi istifadəyə veriləcəyi nəzərdə tutulur.

**❑ Məğrur MƏRD**

**Fotolar müəllifindir**

# YENİ MÜSAVAT

## Son səhifə

*N 193 (6514) 1 sentyabr 2016*


# Ata minmədən əvvəl... paraşütə minmək lazımdır

**İngiltərədə Staffordşir-də ölkənin ən böyük atı yaşayır. Paul Evansın sahibi olduğu atın adı Sovereyndir. Dörd yaşında-kı at tam bir ton ağırlığında 3.04 metr hündürlüyündə-dir.**

İngiltərənin "Daily Mail" qəzetinin jurnalisti Robert Hardman hündür atın beli-nə çıxmaq üçün xeyli əziy-yət çəkib: "Bu hündürlükdə atın üstündə dayana bil-mək üçün mənə daha çox paraşüt lazım gələcək".



Sovereynin sahibi Evans isə bildirib ki, at ilk aldığı vaxtlarda da olduqca bö-yük olub.

# Kökləri anlamaq üçün kökəldi



**Amerikada yaşa-yan Drev Man-ning adlı kişi ideal bədən qu-ruluşu ilə hər kəsi özünə heyran qoymuşdu. O, id-man müəllimi olaraq bə-dən quruluşundan nara-zı olan adamlarla çalışır-dı. Bir gün kök adamla-rın komplekslərini anla-maq üçün kökəlməyə qə-rar verib.**

O, 6 ayda 35 kilo kökə-lərək əvvəlki bədən for-masını itirib. 30 yaşlı id-man müəllimi kökəlmək üçün 6 ay ərzində hər gün qızardılmış kartof, don-durma və xəmir yeməklə-ri yeyib. 88 kilodan 123 ki-loya qədər kökələn müəl-limin səsi qalınlaşıb, üzü səpməyə başlayıb və xo-lesterolu artıb. Manningin özünə inamı azalıb və da-ha da kövrəkləşib. Dostlarının belə ona qarşı münasibəti dəyişib. İstə-diyi nəticəni əldə edən Manning indi başına gə-lənləri və hiss etdiklərini yazaraq kitab çıxarmağa hazırlaşır. D.Manning kö-kəldikdən sonra kök in-sanların komplekslərini və niyə arıqlamaq istədik-lərini anladığını deyib.

# "Bir müddət fasilə verək" - ən məşhur ayrılıq bəhanəsi budur

**İsveçrədə aparılan bir araşdırma cütlüklərin ayrıl-ma bəhanələrini sistemləşdirib. Məlum olub ki, ən məşhur ayrılma bəhanəsi "bir müddət münasi-bətlərimizə fasilə verək"dir. İkinci sırada "işlə-rim çoxdur, sənə vaxt ayıra bilmirəm" gəlir.**

"Eyni dalğalarda deyilik", "Anam səni bəyənmir", "Məni boğursan", "Dərilərimiz belə uyuşmur", "Artıq mə-ni həyəcanlandırmırsan", "Mən sənə istədiklərini verə bilmərəm", "Sən əvvəlki sən deyilsən", "Sənə öyrəşmək istəmirəm", "Bu münasibətin sonunu görə bilmirəm", "Biz ayrı-ayrı dünyaların insanlarıyıq", "Səni sevirəm, amma sənə aşiq ola bilmirəm" tipli bəhanələr də ayrıl-maq istəyən tərəfin istifadə etdiyi bəhanələr sırasında-dır. Araşdırmaya görə, ümumən bu tipli bəhanələrdən daha çox kişilər istifadə edir. Ayrılmaq istəyən qadının həyatında başqa biri varsa, mütləq bunu etiraf edəcək gücə sahib olur.





# Ərini öldürmək istədi, amma əri onu ölümdən xilas etdi

**Yaponiyada yaşayan bir qadının həyatını öldürmək istədiyi əri xilas edilib. Məlu-matlara görə, ər-arvad ara-sında uzun müddət davam edən mübahisə yaranıb. Söz-söhbətdən bezən kişi öz iş otağına gedib və orada ya-tıb.**

Əsəbləri sakitləşməyən qadın kağızlar yandıraraq əri-nin yatdığı otağa atıb. Sonra isə öz otağında yatıb. Yuxu-dan oyanan kişi evin yandığı-nı görüb. O, bayıra çıxdıqdan sonra arvadının evdə qaldığı-nı başa düşüb. Yenidən evə qayıdan kişi arvadını yanan evdən çıxara bilib. Xəstəxa-naya aparılan cütlük həkimlər tərəfindən müayinə edilib. Qadın, sadəcə, dumandan zəhərləndiyi üçün xəstəxa-nadan tez çıxarılıb. Kişi isə ağır yanıq xəsarətləri aldığı üçün hələ də xəstəxanada-dır. Suçunu etiraf edən qadın həbs edilib. Lakin o, ərini öl-dürmək istəmədiyini, yalnız qorxutmaq üçün belə addım atdığını deyib.




**QOÇ** - Bəri başdan nəzəri-nizə çatdıraq ki, bu təqvim sizin üçün da-ha çox maraqlı görüş və xoş təsadüflərlə yadda qalacaq. Çalışın ki, əsas vaxtınızı ailə-sevgi mü-nasibətlərinə həsr edəsiniz.

**BUĞA** - Ulduzlar bütün səlahiyyəti öz əlinizə verəcək. Odur ki, hər bir məsələdə obyektiv qərarlar qəbul etməlisiniz. Ətrafı-nızda olanlarla xoş davranın. Pulla bağlı diqqətli olun.

**ƏKİZLƏR** - İlk öncə ailə-sevgi münasi-bətlərini yaxşılaşdırın ki, gərginliyiniz azal-sın. Günün ikinci yarısında sürprizlər müm-kündür. Şəxsi büdcənizi artırmaq ehtimalı-nız da var. Yaxın səfərə çıxmağa dəyər.

**XƏRÇƏNG** - Kifayət qədər gərgin gün olduğundan tədbirli və ehtiyatlı olmağı unutmayın. Özünüzü istənilən təzyiq və təxribatdan qoruyun. Nəqliyyatda isə xü-susilə diqqətli olmalısınız.

**ŞİR** - Hansısa qanqaraldan hadisə göz-lənilmir. Şübhə ilə yanaşdığınız adamları isə ittiham etməyə tələsməyin. Sizə hadi-sələri dərindən analiz etmək lazımdır. Na-har ərəfəsində təklif ala bilərsiniz.

**QIZ** - Hiss olunur ki, hansısa məsələyə görə tərəddüd içində qalmısınız. Əgər özü-nüz qərar çıxara bilmirsinizsə, etibar etdi-yiniz insanlarla məsləhətləşin. Ayın bürcü-nüzdə olduğunu da unutmayın.

**TƏRƏZİ** - Təzə ayın bu ilk günündə ul-duzlar sizə daha çox istirahət vəd edir. Ma-raqlı sürprizlər, qonaqlıqlar yolunuzu göz-ləyir. Nahardan sonrakı saatlarda ovqatını-zı yüksəldən insanlarla rastlaşacaqsınız.

**ƏQRƏB** - O qədər də uğurlu gün deyil. Daxili sıxıntılarınız, səhhətinizlə bağlı problemlər, eləcə də mövcud şəraitdən na-razılığınız əhvalınızı aşağı sala bilər. Yalnız qazanmaq şansınız var.

**OXATAN** - Bəri başdan nəzərinizə çat-dıraq ki, bu gün uzaq səfərə çıxmağınız məsləhət deyil. Vaxtınızı ailənizlə və ya müştərək fəaliyyət göstərdiyiniz dostları-nızla birlikdə keçirin.

**OĞLAQ** - Məhəbbət və pul. Göy qübbə-si bu gün sizə məhz bu iki sahədə uğurlar bəxş edəcək. Deməli, büdcənizi ağırlaşdı-rıb sevdiyiniz adamla maraqlı bir təqvim yarada biləcəksiniz. Hər halda, uğurlar!

**SUTÖKƏN** - Düşünülməmiş risklərdən uzaq olsanız, ulduzlar sizi incitməyəcək, əksinə, günün sonuna qədər ovqatınızın xoş olması üçün canfəşanlıq göstərəcək. Axşam təzə xəbərlər də gözlənilir.

**BALIQLAR** - Dünənki ovqatınız bu gün də davam edəcək. Ətrafınızda hər şey gö-zəl olacaq. Hətta maddi durumunuz imkan versə, səfər də etmək olar. Şəxsi işləriniz-də isə dönüş gözlənilir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Baba ilə nəvə eyni kollecə daxil oldular

**Teksas ştatında 82 yaşlı Rene Neyra və onun 18 yaşlı nəvəsi Melani Salazar KİV və sosial şəbəkənin qəhrə-manı olublar. Onlar eyni kollecə daxil olmaqla məş-hurluq qazanıblar.**

Melani twitter-dəki izləyicilərinə bildirib ki, babası ilə eyni yerdə oxuyacaq. "Mən öz babamla o qədər qürur duyuram ki..." İstifadəçilərdən biri isə onun xəbərinə belə reaksiya verib: "80 - indinin 40-ı deməkdir". Rene və Milaninin bu hekayəsi dünyanın onlayn mediası üçün də maraqlı olub. Onların 27 avqustdakı ilk kollec günü barədə "BuzzFeed", "ABC News" və "Huffington Post" nəşrləri yazıb. Bundan başqa, baba-nəvəni "Good Mor-ning America" şousuna da dəvət ediblər. 18 yaşlı Salazar təbii incəsənəti, Neyra isə iqtisadiyyatı oxuyacaq. Kollecdən sonra kişi Teksas Universitetinə qəbul olmağı planlaşdırır. Melani eti-raf edib ki, babasının hərəkəti onu çox həvəslndirib: "Mən bili-rəm ki, əgər babam bunu edirsə, mən də edə bilərəm".

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 4.750

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.